**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ (UNEC)**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

# "İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRDƏ TURİZMİN İNKİŞAF PERSPEKTİVLƏRİ"

**mövzusunda**

**MAGİSTR DİSSERTASİYASI**

**Əhmədov Xəzər Həbib**

**BAKI – 2022**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

**BMDM-in direktoru**

**i.ü.f.d., dos. Əhmədov Fariz Saleh oğlu**

**______________________imza**

**“___” __________ 2022-ci il**

# “İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRDƏ TURİZMİN İNKİŞAF PERSPEKTİVLƏRİ”

**mövzusunda**

## MAGİSTR DİSSERTASİYASI

İxtisasın şifri və adı: 060404 – İqtisadiyyat

İxtisaslaşma: Turizmin iqtisadiyyatı

Qrup: 86


**Magistrant:**
**Əhmədov Xəzər Həbib oğlu**
**______________________ imza**

**Elmi rəhbər:**
**i.ü.f.d., dos. Məmmədov Elşən Qardaşxan oğlu**
**______________________ imza**

**Proqram rəhbəri:**
**i.ü.f.d., dos. Hümbətova Suqra İnqilab qızı**
**______________________ imza**

**Kafedra müdiri:**
**i.e.d., prof. Kəlbiyev Yaşar Atakişi oğlu**
**______________________ imza**


**BAKI - 2022**

## Elm andı

Mən, Əhmədov Xəzər Həbib oğlu and içirəm ki, “İşğaldan azad olunmuş ərazilərdə turizmin inkişaf perspektivləri” mövzusunda magistr dissertasiyasını elmi əxlaq normalarına və istinad qaydalarına tam riayət etməklə və istifadə etdiyim bütün mənbələri ədəbiyyat siyahısında əks etdirməklə yazmışam.

## “İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRDƏ TURİZMİN İNKİŞAF PERSPEKTİVLƏRİ”


## XÜLASƏ

**Tədqiqatın aktuallığı: Ölkəmizdə turizmin inkişafının prioritet sahə kimi qəbul olunması, bu sahədə dərin tədqiqatların aparılmasını zəruri edir. Məqsəd elementlərin turizm potensialının Azərbaycan üçün iqtisadi cəhətdən vacibliyini üzə çıxarmaqdır. Bu tədqiqat işi işğaldan azad edilmiş Azərbaycan torpaqlarının turizm potensialı baxımından qiymətləndirilməsini əhatə edir. Bu səbəbdən tədqiqat Qarabağın turizm potensialının ölkə turizminin vacib elementinə çevrilə biləcəyinin müzakirəsi baxımından əhəmiyyətlidir.**

**Tədqiqatın məqsədi: Qiymətləndirmə mərhələsi çərçivəsində işğaldan azad edilmiş ərazilərdə turizmin davamlı inkişafı üçün şəraitin yaradılmasında hər bir amilin uğurlu olub-olmaması ilə bağlı qiymətləndirmə aparılması araşdırmanın əsas məqsədini göstərməkdədir.**

**İstifadə olunmuş tədqiqat metodları: Tədqiqat prosesində SWOT təhlil, müqayisəli təhlil, elmi ümumiləşdirmə, statistik təhlil və s. kimi metodlardan istifadə edildi.**

**Tədqiqatın informasiya bazası: Araşdırma zamanı yerli və xarici turizm ekspertlərinin, alimlərin fikirlərindən, statistik göstəricilərdən, qəzet və jurnallarda nəşr olunan məqalələrdən istifadə olunub.**

**Tədqiqatın məhdudiyyətləri: Bu mövzunun araşdırılması zamanı pandemiya dövrünün davam etməsi, ərazilərdə bərpa prosesinin yekunlaşmaması proqnozlaşdırmada və analizdə çətinliklər yaratmışdır.**

**Tədqiqatın elmi yeniliyi və praktiki nəticələri: Tədqiqat nəticəsində bölgədə turizmin çatışmayan cəhətləri, gələcəkdə qarşılacağı problemlər aşkarlanmış, beynəlxalq yanaşmalardan istifadə edərək turizmin inkişafının təmin edilməsi yolları müəyyən edilmişdir. Tədqiqat prosesində azad olunmuş bölgədə turizm fəaliyyətinin qurulması bir çox sosial-iqtisadi problemlərin həll edilməsi ilə iqtisadiyyatın inkişafına önəmli təsir göstərəcəyi müəyyən edilmişdir.**

**Nəticələrin istifadə oluna biləcəyi sahələr: Tədqiqat bir çox elmi yazılarda, dövlətin Qarabağ ərazisində olan tədbirlər planın hazırlanmasında, bir çox turizm subyektləri tərəfindən istifadə edilə bilər.**



***Açar sözlər: turizm, azad olunmuş ərazi, rekreasiya, innovativ, dövlət strategiyası.***

## “PROSPECTS FOR THE DEVELOPMENT OF TOURISM IN THE LIBERATED TERRITORIES”


## SUMMARY

**The actuality of the subject: Acceptance of the development of tourism in our country as a priority area makes it necessary to conduct in-depth research in this area. The aim is to highlight the economic importance of the elements' tourism potential for Azerbaijan.**

**Purpose and tasks of the research: The main purpose of the study is to assess the success of each factor in creating conditions for the sustainable development of tourism in the liberated areas as part of the assessment phase.**

**Used research methods: SWOT analysis, comparative analysis, scientific generalization, statistical analysis, etc. methods were used.**

**The information base of the research: The study used the opinions of local and foreign tourism experts, scientists, statistics, articles published in newspapers and magazines.**

**Restrictions of research: During the study of this topic, the continuation of the pandemic period and the incomplete recovery process in the areas created difficulties in forecasting and analysis.**

**The novelty and practical results of investigation: As a result of the study, the shortcomings of tourism in the region, the problems to be met in the future were identified, and ways to ensure the development of tourism using international approaches were identified.**

**Scientific-practical significance of results: The research can be used in many scientific articles, in the preparation of the plan of measures of the state in the territory of Karabakh, by many tourism entities.**



***Keywords: tourism, liberated territory, recreation, innovative, state strategy.***

# İXTİSARLAR

**ABŞ**: Amerika Birləşmiş Ştatları

**AR**: Azərbaycan Respublikası

**ATM**: Arabian Travel Market

**COVID-19**: Coronavirus disease (Koronavirus xəstəliyi)

**DTA**: Dövlət Turizm Agentliyi

**KOB**: Kiçik və Orta Biznes

**KOBİA**: Kiçik və Orta Biznesin İnkişafı Agentliyi

**KOS**: Kiçik və Orta Sahibkar

**SWOT**: Strengths, Weaknesses, Opportunities, and Threats

**UNWTO**: Ümumdünya Turizm Təşkilatı

**ÜDM**: Ümumi Daxili Məhsul

**ÜTT**: Ümumdünya Ticarət Təşkilatı

**YUNESKO**: Birləşmiş Millətlər Təşkilatının Təhsil, Elm və Mədəniyyət Təşkilatı

**MÜNDƏRİCAT**

**GİRİŞ.......................................................................................................8**

**I FƏSİL. İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRDƏ TURİZMİN İNKİŞAFININ KONSEPTUAL ƏSASLARI....................................................12**

1.1. İşğaldan azad olunmuş ərazilərin təbii-coğrafi mövqeyi.............................12

1.2. İşğaldan azad olunmuş ərazilərin sosial-iqtisadi inkişafının elmi-nəzəri əsasları..........................................................................................................17

1.3. İşğaldan azad olunmuş ərazilərdə turizmin inkişaf amilləri.............................27

**II FƏSİL. İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRDƏ TURİZMİN İNKİŞAF POTENSİALININ DƏYƏRLƏNDİRİLMƏSİ.................................35**

2.1. İşğaldan azad edilmiş ərazilərdə turizmin regional xüsusiyyətlərinin analizi....35

2.2. İşğaldan azad edilmiş ərazilərin turizm-rekreasiya potensialı..........................43

2.3. Bölgədə turizm infrastrukturunun yaradılması ilə bağlı problemlər və həll yolları.......................................................................................................... 52

**III FƏSİL. İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRDƏ TURİZMİN DAVAMLI İNKİŞAFI ÜÇÜN ADAPTİV SİSTEMLƏRİN YARADILMASI VƏ TƏTBİQİ YOLLARI.........................................................................61**

3.1. Bölgədə turizmin davamlı inkişafı üçün dövlət strategiyasının formalaşdırılması...........................................................................................61

3.2. Bölgədə turizmin inkişafını təşviq edəcək innovativ mexanizmlərin yaradılması...................................................................................................70

**NƏTİCƏ VƏ TƏKLİFLƏR.................................................................................80**

**İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI.............................................83**

Şəkillərin siyahısı.............................................................................................88

Cədvəllərin siyahısı..........................................................................................88

Qrafiklərin siyahısı...........................................................................................88

## GİRİŞ

**Mövzunun aktuallığı:** Azərbaycan Qafqaz dağları, düzənlikləri, çayları, gölləri, 825 km-lik Xəzər dənizi sahili, zəngin mineral suları, bir çox iqlim tiplərinin birgə yaşaması və zəngin tarixi sərvətləri ilə yüksək turizm potensialına malik ölkədir. Azərbaycanda çoxlu şəfalı su mənbələrinin, vulkanik palçıqların, duzlu göllərin müalicəvi palçıqlarının, müalicəvi palçıq yağlarının olması ölkədə sağlamlıq turizmi baxımından nə qədər əlverişli şəraitin olduğunu göstərir. Digər tərəfdən, Azərbaycanın Böyük Qafqaz, Kiçik Qafqaz və Talış dağları kimi yüksək relyefli ərazilərə malik olması dağ və ov turizmi baxımından da yüksək potensial təmin etmişdir. Göründüyü kimi, Azərbaycanda turizm fəaliyyəti kifayət qədər müxtəlifdir. Lakin önəmli olan bu müxtəliflikdən səmərəli istifadə edib, ölkə iqtisadiyyatına böyük töhfə verə biləcək sektora çevirməkdir.

Azərbaycanın işğaldan azad edilmiş ərazilərdə tikinti təcrübəsi yeni deyil. 2016-cı ilin aprelində əks hücum zamanı Azərbaycan ordusunun nəzarəti bərpa etdiyi Cocuk Mərcanlı qəsəbəsi də xarabalığa çevrilmişdi. Amma bu ərazi Azərbaycan hökuməti tərəfindən qısa müddətdə yenidən quruldu. "Böyük Qayıdış"ın başlanğıcı olaraq xarakterizə edilən Cocuk Mərcanlının inkişafına Türkiyə də töhfə verdi.

Azərbaycan qlobal turizm bazarında mühüm oyunçu olmaq potensialına malikdir. Qarabağın azad edilməsi ilə bu potensial daha da artırmış və yeni inkişaf dövrü başlamışdır. "Qafqazın cənnətini dünyanın turizm mərkəzinə çevirəcəyik" strategiyası ilə Azərbaycan Qarabağda turizm sahəsində mühüm investisiyalara başlayıb. Çünki Qarabağ bölgəsi təbii gözəllikləri, tarixi teksturası, mədəni zənginliyi və endemik bitki örtüyü ilə turizm sektoru üçün toxunulmaz coğrafiyadır.

**Problemin qoyuluşu və öyrənilməsi səviyyəsi:** Son illər işğaldan azad edilmiş ərazilərdə turizmin inkişaf perspektivi bir sıra dəyişikliklərə məruz qalıb. Bunlardan biri bütün dünyaya və ölkəmizə təsir edən koronavirus pandemiyasıdır. İşğaldan azad edilmiş ərazilərdə turizmin inkişafında informasiya siyasətinin əsas vəzifəsi bu

yeni regionların müsbət imicini təbliğ etmək, onların cəlbedici turizm istiqamətləri kimi mövqelərini möhkəmləndirməkdən ibarətdir.

Turizm çoxlu sayda infrastruktur obyektlərinin inkişafını tələb edir ki, bu da şübhəsiz ki, regionun iqtisadiyyatına öz təsirini göstərəcək. Bunlara nəqliyyat, enerji təchizatı, rabitə-informasiya sistemləri, yaşayış, əyləncə və xidmətlər daxildir. İşğaldan azad edilmiş ərazilərdə turizmə təsir edən bir fenomen hələ də tam qüvvədədir. Bu, Azərbaycan və Ermənistan arasında münaqişənin yaranması ilə bağlı təhlükəsizlik tədbirlərinə dövlət xərclərinin artmasıdır. Bu bölgələrin təhlükəsizliyini təmin etmək böyük xərc tələb edir.

Araşdırma zamanı bir çox yerli və xarici tədqiqatlara istinadlar verilmişdir. Bunlardan Abadov M.K., Babayev F.F., Hüseyn A., Məhərrəmova T., Məmmədov E.Q., Mükərrəmoğlu M., Nəbiyev E.S., Nəsirzadə X., Salıfov T.M., Salmanlı R., Sarıyeva İ., Salayev N., Əkbərov C., Mehdiyeva V., Bəhərçi T., Babaxanov N., Əvəzli K.N., Hüseyn A., Comerio N., Mousavi S., Strozzi F., Hokara E., Öztürk S., Davuthan G. və  bir çox tədqiqatçıları göstərmək olar.

**Tədqiqatın məqsəd və vəzifələri:** Bu tədqiqatın əsas məqsədi işğaldan azad edilmiş ərazilərdə turizmin inkişaf perspektivlərini başa düşmək, onun inkişaf trayektoriyasına diqqət yetirməkdir. Bu məqsədlərə nail olmaq üçün qarşıya bir neçə vəzifələr qoyulmuşdur. İşğaldan azad edilmiş ərazilərdə turizmin sosial-mədəni ölçüsünü nəzərə alaraq təkliflklər hazırlanmışdır. Təkliflərə turizm fəaliyyətinin effektiv təşviqi üçün vacib olan ümumi məqsədlər haqqında məlumatlar daxildir. Sosial-mədəni kontekst təhlili ilə turizm infrastrukturunun inkişafına onların strateji əhəmiyyəti ilə təsir edən bəzi əsas amillərə nəzər salınmışdır.

**Tədqiqatın obyekti və predmeti:** Tədqiqatın obyekti işğaldan azad olunmuş ərazilərdə turizmin inkişafıdır. Tədqiqatın predmeti kimi regionun turizm potensialının dəyərləndirilməsi, turizm infrastrukturunun  inkişafının təmin edilməsi üçün dövlətin rolunu və təşviqedici mexanizmlərini araşdırmaqdır.

**Tədqiqat metodları:** Tədqiqat zamanı Azərbaycanın işğaldan azad olunmuş ərazilərdə turizmin inkişaf perspektivləri araşdırılmış və bu sahə üzrə bir neçə metodlar və təhlillər vasitəsilə reallaşdırılmışdır. Təhlil metodu əsasında Azərbaycanın işğaldan azad olunmuş ərazilərdə turizm-rekreasiya potensialı xarici və yerli mənbələrdən istifadə edilərək turizmin inkişaf yolları və onun iqtisadiyyatdakı rolu tədqiq edilmişdir. Tədqiqat işində təhlil, müqayisə və sintez metodlarından istifadə edərək turizmin regional xüsusiyyətləri təhlil edilmişdir.

**Tədqiqatın informasiya bazası:** Tədqiqat işində müxtəlif yerli və xarici məqalələr və ədəbiyyatlardan, internet resurslarından, eyni zamanda da yerli və xarici turizm ekspertlərinin fikirlərindən istifadə edilmişdir. Azərbaycanın işğaldan azad olunmuş bölgələrində turizmin inkişafında görülən problemlərin həlli yolları beynəlxalq təcrübəyə əsaslanaraq mümkün ola bilər. Bu səbəbdən dünya təcrübəsindən yararlanaraq, turizm sahəsi üzrə infrastrukturun yaradılması ilə bağlı problemlər və onların həlli yolları üçün fərqli məqalələrdən istifadə edilmişdir.

**Tədqiqatın məhdudiyyətləri:** Tədqiqat azad edilmiş ərazilərdə turizmin inkişaf potensialının dəyərləndirilməsini ölçmək üçün nəzərdə tutulmuşdur. İşğaldan azad edilmiş ərazilərdə turizmin regional xüsusiyyətlərinin tətbiqi ilə nəticələrini geniş miqyaslı proqnozlaşdırmaq və analiz lazımdır. Tədqiqat işində turizmə dair bir neçə elmi-nəzəri yanaşmalara istinadlar verilmişdir. Əsasən də Azərbaycanın azad edilmiş ərazilərində turizm sektoru üzrə araşdırmalar aparılıb. Turizm bu bölgələrdə bərpa işləri yekunlaşmadığından, dünyada və ölkəmizdə davam etməkdə olan pandemiyanın sektorun statistik məlumatlarının olmamasından tam analiz zamanı çətinliklər yaratmışdır.

**Tədqiqatın elmi yeniliyi**: Qarabağın turizm potensialının inkişafı həm Azərbaycan iqtisadiyyatına ciddi maliyyə qazancı verəcək, həm də işğaldan azad edilmiş şəhərlərə səfər edəcək xarici turistlər rayonun mədəni sərvətləri ilə yaxından tanış olacaqlar. Eyni zamanda, bu turistlər həm ölkələrinə qayıtdıqdan sonra tanışlarına danışaraq, həm də sosial şəbəkələrdə paylaşaraq Azərbaycan

mədəniyyətini və sivilizasiyasını dünyaya tanıtacaqlar. Beləliklə, turizm sektoru mədəni diplomatiya funksiyasını yerinə yetirməklə bütün dünyanın Qarabağı mərkəz kimi görməsində rol oynayacaq.

Tədqiqata əsasən əldə olunan bütün mühüm müddəalara, nəticələrə, və tövsiyələrə əsasən Azərbaycanın işğaldan azad olunmuş əraziləri subyektinin turizmin inkişafı strategiyasının tənzimlənməli və onun həyata keçirilməsinə dair tədbirlər planının hazırlanmalı, o cümlədən dövlətin tənzimlənməsi üçün tədbirlər planı hazırlanmalıdır.

**Nəticələrin praktiki əhəmiyyəti və tətbiq sahələri:** Tədqiqatda əldə olunan nəticələr və tövsiyələrin hər biri Azərbaycanın işğaldan azad olunmuş ərazilərində turizmin inkişafını təkmilləşdirmək üçün istifadə oluna bilər.

# I FƏSİL. İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRDƏ TURİZMİN İNKİŞAFININ KONSEPTUAL ƏSASLARI

## 1.1. İşğaldan azad olunmuş ərazilərin təbii-coğrafi mövqeyi

Geniş elmi araşdırmalar və tarixi faktlar sübut edir ki, Qarabağ bölgəsi bütöv bir təbii-coğrafi mövqeyi, vahid çay şəbəkəsini, kompleks ekoloji sistemi, bir-biri ilə əlaqəli iqtisadiyyatı və kommunikasiyanı təşkil edir. Qarabağın təbii-coğrafi mövqeyi və iqtisadi birliyi, onun digər bölgələrlə əlaqələrinin təbiiliyi, kommunikasiyası, Ağdam-Xankəndi dəmir yolu, avtomobil yolları və elektrik təchizatı sistemi bütövlükdə Qarabağın kompleks tarazlı inkişafında güclü əsaslarını təşkil edir.

Təbii ehtiyatların zənginliyi və onların turizm potensialı regionun qiymətləndirilməsində kompleks inkişafının əsas aspekti ola bilər (Məmmədov E.Q., 2013 : s.75). Bildiyimiz kimi, ordumuzun Ermənistanın işğalından azad etdiyi bir çox ərazilərdə turizmin inkişafı üçün böyük perspektivlər var. Qarabağ Azərbaycanın qədim tarixi bölgələrindən biri sayılır. Şuşa, Kəlbəcər, Laçın, Ağdam rayonları hələ SSRİ dövründən turistlər arasında populyar olmuşdur.

Qarabağın əlverişli iqtisadi-coğrafi mövqeyi, zəngin sərvətləri, əvəzedilməz təbii-iqlim xüsusiyyətləri, çox zəngin flora və faunası ölkənin turizm sənayesinin inkişafında yeni həyat deməkdir. Bu bir həqiqətdir ki, bu sahələrə investisiya qoyuluşu bu sahədə iş adamları üçün böyük imkanlar yaradacaq və bu investisiyalar, nəticədə, ölkə büdcəsinə kifayət qədər gəlir gətirəcəkdir. İşğaldan azad edilmiş torpaqlarımızın çoxlu mineral və termal su ehtiyatları ilə zənginliyi də rayonun turizm potensialının artırılmasında mühüm amildir.

Azərbaycan mədəniyyətində dəyərli inci sayılan Şuşa həm yerli, həm də xarici turistləri cəlb etmək üçün kifayət qədər potensiala sahibdir. Burada yerləşən tarixi-memarlıq abidələrinin hər biri turizm marşrutlarının yaradılmasına şərait yaradır.

Şuşa həm də istirahət və müalicə zonası olaraq tanınır. Qarabağ bölgəsində bir çox YUNESKO-nun Ümumdünya İrs Siyahısına salınacaq abidələrimiz də var.

Qarabağ bölgəsində turizmin inkişafı bu istiqamətdə bir çox yeni marşrutların açılmasına, yol infrastrukturunun genişləndirilməsinə səbəb olacaqdır. Xudafərin körpüsü və digər tarixi abidələr də zamanla turistik məkana çevriləcək.

Qarabağın turizm potensialını müxtəlif sərgilərdə nümayiş etdirməklə və onunla bağlı reklam tədbirlərini dünya səviyyəsinə çıxarmaqla biz bu sahənin daha da inkişafını sürətləndirə bilərik. Təsadüfi deyil ki, bu sahədə Azərbaycan Turizm Bürosu Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində təşkil olunan Gulf Travel Show sərgisi zamanı iştirak etmişdir. İştirakçılara işğaldan azad edilmiş Qarabağ bölgəsinin turizm potensialı və görülən tədbirlərdən sonra bu bölgənin yeni turizm istiqamətləri siyahısına daxil edilməsi barədə məlumat verilmişdir. Qarabağda turizmin inkişafında insan kapitalı amili də xüsusi rol oynayır. İnsan kapitalının inkişafı ilə Dağlıq Qarabağın turizm potensialı yenidən hazır edilə bilər.

Yuxarı Qarabağ və onun işğal olunmuş əraziləri tarixi və mədəni dəyərə, zəngin iqtisadi potensiala, füsunkar təbiətə, habelə yeraltı və yerüstü sərvətlərə, habelə geniş turizm imkanlarına sahibdir. Bu sahələr aqrar təsərrüfatın üstünlüyündə, xammal bazasında və emal sənayesinda əlverişli əhəmiyyətə malikdir. Bu torpaqların iqtisadi potensialının ən əsas parametrlərinə diqqət yetirərsək görərik ki, Ermənistanın talan və istismarı nəticəsində rayonun infrastrukturu sıfır səviyyəsinə gətirib çatdırılıb. İşğal nəticəsində burada tarixi abidələrimiz dağıdılıb, minlərlə hektar əkin sahəsi hərbi tullantılarla çirkləndirilib, milli-mənəvi sərvətlərimiz və irsimiz məhv olunubdur. Milli irs nümunəsi sayılan və belə sahələrdə ən vacibi sayılan muzeylərimiz diqqətdən kənarda qalıb, fəaliyyəti heçə endirilmişdir.

Həmin muzeylərdən turizm baxımından ən önəmlisi tarixlə, incəsənətlə və xalçaçılıqla bağlı muzeylərdir. Bu muzeylər böyük kolleksiyaya malikdir və xarici turistlər üçün də çox cəlbedicidir. Rayonlarda bir çox etnoqrafik, tarix-diyarşünaslıq və kustar əl işləri muzeyləri də fəaliyyət göstərir. Bölgələrə gələn turistlər üçün bu

muzeylərə turların təşkili məqsədəuyğun olardı. Bundan başqa, Yuxarı Qarabağ iqtisadi zonasına Tərtər, Ağdam, Xocavənd, Xocalı, Cəbrayıl, Şuşa, Füzuli rayonları və Xankəndi şəhəri də daxildir. Burada 1991-1993-cü illərdə iqtisadi ərazinin Xocalı,Xocavənd, Cəbrayıl, Şuşa, və Xankəndi şəhəri tamamilə, Füzuli və Ağdam rayonlarının torpaqları isə qismən Ermənistan tərəfdən işğal edilib. Bu, iqtisadi zonanın ərazisinin təqribi 90%-ni təşkil edirdi.

Yuxarı Qarabağ bölgəsi işğaldan əvvəl tarix və mədəniyyət abidələri ilə zəngin olub. Ərazidə dünyaca məşhur memarlıq və arxeoloji abidələr vardır. Dünya şöhrətli memarlıq abidələrindən Cəbrayıl rayonundakı 15 tağlı (XIII əsrə) və 11 tağlı (Xl-XII əsrlərə) Xudafərin körpüləri, Ağdam əyalətinin Xaçın Türbəli kəndindəki məqbərə (XIX əsrə), Füzuli rayonundakı Azıx və Tağlar mağaraları (Paleolit dövrünə), Quzanlı qəsəbəsindəki Leylantəpə yaşayış yeri (Eneolit dövrünə), Ağdam rayonundakı Əfətli kəndində Çalağantəpə adlı yaşayış yeri (Eneolit dövrünə), habelə Ağdamdakı Üzərliktəpə yaşayış yeri (Tunc dövrünə), Tərtərdəki Borsunlu kurqanları (Tunc- Erkən Dəmir dövrünə), Xocalı ərazisindəki Xocalı kurqanları (Tunc-Erkən Dəmir dövrünə) və Cəbrayıl rayonundakı Xubyarlı kəndində olan Niftalı kurqanları (Tunc dövrünə) aid edilir.

Ümumiyyətlə, bölgədə yerli əhəmiyyətli çox sayda tarix və mədəniyyət abidələri mövcuddur. Ümumi olaraq qeyd edə bilərik ki, Xocavənddə 16 Alban məbədi və Xocalıda 6 Alban məbədi ilə zəngindir. Xocavənd rayonundakı ən qədim alban məbədi isə IV-VI əsrlərdə olan Süsənlik kəndindəki abidə aiddir. XVIII əsrdə Şuşada yaşamış xanlara məxsus çoxlu evlər, saraylar, türbələr, qalalar və məscidlər mövcuddur. Füzuli, Cəbrayıl və Ağdam rayonlarındakı tarixi kəndlərdə çoxlu qalalar, məscidlər və digər ibadət ocaqları vardır. Təəssüf ki, rayonun bütün zəngin sərvətləri, o cümlədən də turizm və rekreasiya ehtiyatlarının çoxu erməni qəsbkarları tərəfdən istismar edilərək dağıdılıbdır.

Şuşa mühüm turizm mərkəzidir. Bu şəhərin coğrafi mövqeyinin özəlliyi, təbiətin sahib olduğu gözəlliyi və burdakı tarixi abidələrin zənginliyi rus etnoqrafı

V.İ. Seqalın elmi yazılarında, Vereshag Gen və Timin rəsmlərində öz əksini tapmışdır. Şuşadakı qədim qala divarları, X.Natəvanın ev-muzeyi, Qarabağdakı xanların iqamətgahları, M.P.Vaqifin məqbərəsi, Xəzinə Qala mağarası, Daşaltı dərəsi və Alban kilsələri olması turislərin cəlb edilməsində rol oynayan obyektlər olmuşdur. Uzun illərdir ki, Şuşa sanatoriyası, "Şəfa" turizm kompleksi, dağ kurort birliyi və 9 mərtəbəli olan "Qarabağ" mehmanxanası turistlərin xidmətindədir. Ermənilərin işğalları nəticəsində adı çəkilən obyektlərin əksəriyyəti dağıdılmışdır. Uzun illər işğal olunmuş ərazilərdə fəaliyyət göstərmiş vahid sayılan nəqliyyat-kommunikasiya sistemi ermənilərin təcavüzü nəticəsində dağıdılmışdır.

Yuxarı Qarabağ füsunkar incəsənət nümunələri, qədim mədəniyyəti və tarix, ecazkar təbiət nümunələrinin varlığı turizm kompleksinin yaradılmasında əlverişli yerə sahibdir. Lakin rayonun işğal altında olması bu imkanlardan istifadə etməyi mümkünsüz etmişdi. Yuxarı Qarabağ iqtisadi zonasında olan bu əhəmiyyəti işğal olunmuş ərazilərin bərpasından sonra bütövlükdə bu torpaqların sosial-iqtisadi inkişafı üçün turizm də daxil olmaqla xüsusi layihələr həyata keçirilməsi planlaşdırılmaqdadır. İşğaldan azad olunmuş ərazilərin təbii-coğrafi mövqeyinə nəzər saldıqda çoxlu turistik zonaların olduğunu görərik. Bunlardan ən əhəmiyyətliləri aşağıdakılardır:

**Cədvəl 1: İşğaldan azad olunmuş ərazilərdə olan turistik zonalar**

| № | Yerləşdiyi ərazi | Turistik zonalar |
|---|---|---|
| 1. | Şuşa | Cıdır Düzü |
| 2. | Şuşa | İsa Bulağı |
| 3. | Tərtər | Suqovuşan barajı |
| 4. | Kəlbəcər | İstisu |
| 5. | Xocavənd | Azıx Mağarası |
| 6. | Şuşa | Çətir Şəlaləsi |
| 7. | Laçın | Novlu Bulağı |
| 8. | Qubadlı | Ballı Qaya |

**Mənbə:** Bəhərçi T., Mehdiyeva V., 2012 kitabının məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Mədəniyyətin kökləri bütün cəmiyyətlərdə dərinlərə gedib çıxır. Təbii ki, gözəllikləri ilə cənnətə bənzəyən, qədim zamanlardan türk vətəni olan Qarabağ

bölgəsi həm də mədəniyyət abidələri, ədəbiyyat, incəsənət, musiqi əsərləri ilə də çox zəngindir. Bölgənin gözəl təbiəti, iqlimi və təbii sərvətlərinin zənginliyi Qarabağın bədii fikrinə və yaradıcılığına da böyük təsir göstərərək İbn Xəlduna istinadən deyilən "coğrafiya qismətdir" deyimini təsdiqləyir.

Qarabağda və onun ətrafında işğaldan azad edilmiş coğrafiyada əsrlər öncədən günümüzə qədər gəlib çatmış çoxlu eksponatlar var. Onların bir çoxu işğalçılar tərəfindən məhv edilib. Bu işlərin bərpası üçün qarşıdakı dövrdə ekoloji tədbirlər görülməlidir. İşğaldan azad edilən Qarabağ və onun ətrafında olan əsas tarixi əsərlər bunlardır; Xudafərin körpüsü, Cəbrayıl Hüdavəng monastırı (Kəlbəcər) Yuxarı Gövhər Ağa məscidi (Şuşa) Ağdam Ulu Məscidi – Cümə Məscidi (Ağdam), Hacı Əli Əkbər Məscidi (Füzuli), Qarabağ Xan Sarayı (Pənah Əli Xan Sarayı).

Dünyanın bəzi bitkiləri yalnız müəyyən bölgələrdə böyüyür və onlara endemik bitkilər deyilir. Bu bitkilər təbii amillərin ən uyğun şəraiti ilə böyüyürlər. Qarabağın yerləşdiyi Cənubi Qafqaz regionu yer kürəsinin heç bir yerində rast gəlinməyən çoxlu sayda bitki növlərini ehtiva edən unikal ekosistemdir. Bunlara nümunə olaraq Çinar palıdı (Zəngilan), Xarı Bülbül (Şuşa) və s. göstərmək olar.

İkinci Qarabağ müharibəsi şəhidlərinin simvolu kimi qəbul edilən Xarı bülbül çiçəyi Qarabağda yalnız Şuşada yetişdirilməsi ilə tanınan endemik bitkidir. Bu kontekstdə simvol fərd üçün dəyəri və mənası olan öyrənilmiş bir stimuldur.

Qarabağın coğrafi mövqeyi və xüsusiyyətləri Kiçik Qafqaz dağ silsiləsi üçün səciyyəvi olan iqlim şəraiti ilə müəyyən edilir. İqlim xüsusiyyətlərinə görə Qarabağ bölgəsini üç müxtəlif iqlim qurşağına bölmək olar. bunlar; orta isti zona, orta soyuq zona, soyuq zonadır. Bölgənin orta dağlıq bölgəsi orta isti zonanı təşkil edir. Yüksək dağlıq ərazilərdə soyuq qurşaq dediyimiz iqlim ümumiyyətlə müşahidə olunur. Orta temperatur 0 ilə 10 °C arasında, orta illik yağıntı isə 600-1200 mm-dir. Qarabağın dağlıq rayonlarında ümumiyyətlə heyvandarlıq, tütünçülük, meyvəçilik və üzümçülük də həyata keçirilib.

Qarabağ ərazisi yüksək dağlardan və yaylalardan ibarətdir. Dəniz səviyyəsindən orta hesabla 2500 m yüksəkliyə qədər meşələrlə örtülü bir bölgədir. Otlaqlar adətən bu hündürlükdən sonra görünməyə başlayır. Rayonun iqlimi ümumiyyətlə mülayimdir, münbit su ehtiyatlarına və münbit torpaqlara malikdir. Qarabağ regionun dominant nöqtələrindən biridir. Xüsusilə bu bölgənin Azərbaycan, Ermənistan və İrana nəzarət etmək imkanı var. Qarabağ bu xüsusiyyəti ilə tarixdən bəri hər zaman başqa ölkələrin və xalqların diqqətini çəkib.

Qarabağ bölgəsi dünyanın ən qədim yaşayış məskənlərindən biridir. Bölgədəki "Azıx" mağarasında tapılan qədim insan – "Azıxantrop"un yaşının təxminən 1,2 milyon il əvvələ aid olduğu iddia edilir. Sonralar, ara dövrlər adlandıra biləcəyimiz dövrlərdə Qarabağ bölgəsində xalqın məişətinə dair çoxlu dəlillər tapılmışdır. Eramızdan əvvəl IV minillikdən bu torpaqların sakinlərinin kimliyi haqqında bəzi məlumatlar müəyyən edilməyə başlandı. Türk xalqı "Hürrilər" eramızdan əvvəl IV minillikdə Qafqaza gələrək Qarabağda məskunlaşıblar. Hurrilərin bölgədə məskunlaşmasından sonra Urartular bölgədə eramızdan əvvəl I minilliyin əvvəllərində görünməyə başladılar. Daha sonra burada türk boylarından olan saklar da məskunlaşıblar.

## 1.2. İşğaldan azad olunmuş ərazilərin sosial-iqtisadi inkişafının elmi-nəzəri əsasları

Sosial-iqtisadi inkişaf dedikdə, ölkənin iqtisadi əməliyyatlarının effektivliyini artırmaqla, həm fərdi, həm də kollektiv yaradıcılığı inkişaf etdirməklə öz həyat səviyyəsini yaxşılaşdırması prosesi başa düşülə bilər. Əsas məqsədi vətəndaşların rifahını yüksəltmək üçün öz resurslarından faydalanan bir cəmiyyət yaratmaqdır. Cəmiyyətin gələcəyi daha çox resursların mövcudluğundan, işin səmərəli təşkilindən, müvafiq infrastrukturdan, dayanıqlı istehsal və paylama sistemlərindən, ümumi sosial dəyərlərdən, real planlaşdırmadan və sosial-iqtisadi inkişaf üçün tələb olunan ümumi anlayışdan asılıdır. Bununla belə aydın və etibarlı təhlükəsizlik vəziyyətinin olmaması, bəzi regionlarda siyasi qeyri-sabitlik kimi məsələlər sosial-iqtisadi inkişaf prosesinə ciddi əngəl törədə bilir.

Sosial-iqtisadi inkişafın məqsədləri və prosesi, habelə onun əsas elementləri və komponentləri aşağıdakı məqamlara görə başa düşülə bilər:

- iqtisadi artım;
- həyat keyfiyyətinin yaxşılaşdırılması;
- resursların təşkili və rasional istifadəsi;
- əmək məhsuldarlığının artırılması;
- insanları məhsuldar işlərdə işə götürmək və bu proses zamanı yarana biləcək mümkün problemləri dəqiq proqnozlaşdırmaq.

Qarabağın işğaldan azad olunmuş bölgələrində bu məsələlərin həlli üçün hökumətlə cəmiyyəti səmərəli şəkildə birləşdirmək vacibdir. Bu halda hökumət aşağıdakı funksiyaları yerinə yetirməlidir:

**Şəkil 1: Qarabağın işğaldan azad olunmuş bölgələrində hökumətin yerinə yetirməli olduğu funksiyalar**




**Mənbə:** Abadov M.K., 2014 kitabının məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Texnoloji imkanların təkmilləşdirilməsi əmək məhsuldarlığının yüksəldilməsinə kömək edir. Əmək məhsuldarlığı işçi qüvvəsinə nisbətən istehsal olunan mal və xidmətlərin miqdarına aiddir. Buna görə də innovasiya əmək məhsuldarlığının artımının əsas komponentlərindən biridir. İnnovasiya real dünya ehtiyaclarını ödəyə bilən yeni məhsulların, proseslərin, ideyaların və ya xidmətlərin tətbiqinə aiddir. Texnologiya, turizm, təhsil, elm və innovasiyaların təkmilləşdirilməsi istənilən ölkədə və ya regionda davamlı sosial-iqtisadi inkişaf üçün vacibdir.

Son illər Azərbaycanda həyata keçirilən iqtisadi islahatlar nəticəsində əhalinin kommersiya fəaliyyəti üçün əlverişli şəraitin yaradılması son nəticədə sahibkarlığın yaranmasına və formalaşmasına səbəb olmuşdur. Bazar iqtisadiyyatı şəraitində insana xas olan müstəqil, iqtisadi və kommersiya fəaliyyəti sahibkarlıq fəaliyyətində təzahür edir. Sosial-iqtisadi inkişafın əsas şərti müxtəlif forma və məzmunda olan sahibkarlıq fəaliyyətidir. Sahibkarlar isə cəmiyyətin fəal elmi yenilikləri qəbul edən və həyata keçirən sosial təbəqələrini təşkil edirlər.

Azərbaycan Respublikasının (AR) işğaldan azad olunmuş bölgələrində sahibkarlıq fəaliyyətinin inkişafı hazırda iqtisadi inkişaf konsepsiyalarına görə aparıcı mövqe tutur və istehsal, istehlak və bölgü münasibətlərinin təmin edilməsində iqtisadi-təşkilati mexanizm rolunu oynayır. Odur ki, sahibkarlığın bu

zonalarda Azərbaycan modeli üzrə inkişafı ölkə iqtisadiyyatının mövcud vəziyyətini, bu sahədə perspektiv inkişafın formalaşdırılmasını və məhsuldar qüvvələrin təkmilləşdirilməsinin həyata keçirilməsini əhatə edir.

İşğaldan azad olunmuş ərazilərdə bazar münasibətləri şəraitində sahibkarlıq fəaliyyətinin inkişafı üçün özünüməşğulluq fəaliyyətinin yaradılmasına xüsusi diqqət yetirilməlidir. O, milli iqtisadiyyatın inkişafına, əhalinin tələbatına və ölkədə rəqabətqabiliyyətli bazara uyğunlaşmasına, insanlarda sahibkarlıq ruhunun tərbiyə edilməsinə və sahibkarlıq fəaliyyətinin inkişaf istiqamətlərinin müəyyənləşdirilməsinə lazımi köməklik göstərir.

İşğaldan azad olunmuş bölgələrdə sosial-iqtisadi inkişafın formalaşması ölkədə məhsul istehsalını artırır, istehlak bazarının inkişafına şərait yaradır, işsizliyin aradan qaldırılmasına, əhalinin məşğulluğunun təmin edilməsinə və dövlət gəlirlərinin artmasına kömək edir.

Makrosəviyyədə dayanıqlı inkişaf konsepsiyasının əsaslandırılmasına fundamental yanaşmaların mövcudluğuna hazırda sosial-iqtisadi sistemlərin dayanıqlı inkişafının idarə olunması mexanizmləri haqqında sistemli nəzəri və model təqdimatların praktiki olaraq qruplanması təsir göstərir. Ayrı-ayrı regionların sosial-iqtisadi sistemlərinin davamlı inkişafının idarə edilməsinin konseptual çərçivəsində ümummilli yanaşmalar nəzərə alınsa da, Qarabağ regionunun inkişafı iqtisadiyyatının sistem təşkili xüsusiyyətlərinin təsiri altında formalaşır. Meqa və makrosəviyyələrdə dayanıqlı inkişaf problemi, əsasən, sosial-iqtisadi inkişafın məqsədlərinin ekoloji sistemin məhdud imkanları ilə uzlaşdırılmasına yönəlmiş antroposentrik yanaşmadan baxılır. Qarabağ regionunun sosial-iqtisadi sisteminin davamlı inkişafına reproduktiv yanaşma onu çoxşaxəli iqtisadi, innovasiya, sosial və ekoloji inkişaf xüsusiyyətlərinə malik, davamlı inkişaf məsələlərinin öyrənilməsində sistemlilik prinsipinin həyata keçirilməsini təmin edən vahid sistem kimi təqdim etməyə imkan verir. Regionun sosial-iqtisadi sisteminin davamlı inkişafının idarə edilməsi üçün aşağıdakılar tələb olunur:

**Şəkil 2: Qarabağda davamlı inkişafın idarə edilməsi üçün tələblər**

- onun davamlı inkişafının daxili mexanizminin öyrənilməsi
- onun hərəkətverici qüvvələrinin və imperativlərinin müəyyən edilməsi
- regionun sosial-iqtisadi sisteminin davamlı inkişafının hərtərəfli qiymətləndirilməsinin məkan və zaman modellərinin qurulması;
- mövcud iqtisadi mühitin innovasiyalara həssaslığının nəzərə alınması;
- regional iqtisadiyyatın sistem elementlərinin inkişafının tarazlaşdırılması və onun göstəriciləri dinamikasının sabitliyi.

**Mənbə:** müəllif tərəfindən aparılan tədqiqat nəticəsində tərtib edilmişdir.

Müasir şəraitdə bələdiyyələrin ölkənin sosial-iqtisadi inkişafı baxımından rolu artır, belə ki, onların ərazilərində iqtisadi artımın gücləndirilməsi, həyat səviyyəsinin differensiallığının azaldılması, səmərəli idarəetmə tədbirlərinin formalaşdırılması və həyata keçirilməsi üçün mühüm ehtiyatlar cəmlənir. Başqa sözlə, bələdiyyələr rayonun bütün sosial-iqtisadi sisteminin əsasını təşkil edir. Buna görə də, Azərbaycanın işğaldan azad olunmuş bölgələrində düzgün bələdiyyə sisteminin qurulması sosial- iqtisadi inkişafın ən vacib elementlərindən biridir.

Qarabağın işğaldan olunmuş rayonlarında yaradılan sənaye müəssisələrində idarəetmə uçotunun qurulması mütləqdir. Yaranan idarəetmə problemlərinin həlli əhalinin həyat keyfiyyətinin yaxşılaşdırılmasında, ərazidə fəaliyyət göstərən müəssisə və təşkilatların uğurlu inkişafında rol oynayır. Dünya təcrübəsində regional və bələdiyyə səviyyələrində idarəetmə alətləri adətən davamlı inkişaf konsepsiyasından istifadə etməklə hazırlanır. Bu rayonlarda bələdiyyələrin davamlı inkişaf istiqamətlərinin işlənib hazırlanmasının xüsusi vəzifəsi aşağıdakılardan ibarətdir:

**Şəkil 3: Qarabağda bələdiyyələrin davamlı inkişaf üçün öhdəliklər**




**Mənbə:** Məmmədov E.Q., 2013 kitabının məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Ərazilərin davamlı inkişafının idarə edilməsinin son məqsədi müvafiq sosial-iqtisadi şəraitdə əhalinin geniş təkrar istehsalıdır. Eyni zamanda, əhalinin tam məşğulluğunun və sosial ədalətin təmin edilməsi, əmək haqqının artırılması, resurslardan səmərəli istifadə edilməsi, sosial infrastrukturun genişləndirilməsi kimi problemlərin həllinə şərait yaradılması vacibdir (Bəhərçi T., Mehdiyeva V., 2012).

Regional inkişaf ölkənin sosial-iqtisadi inkişafı meyilləri, insan kapitalının mövcudluğu, əhalinin həyat səviyyəsi və keyfiyyəti, təbii ehtiyatlardan səmərəli istifadə və təkrar istehsal imkanları ilə formalaşır. Eyni zamanda, həm ayrı-ayrı regionlar daxilində inkişafın disbalansları, həm də müxtəlif regionların inkişaf səviyyəsi baxımından balanssızlıqlar milli təhlükəsizliyi poza bilər. Məhz buna görə də təkcə ölkənin davamlı inkişafı deyil, həm də işğaldan azad olunmuş regionların və bələdiyyələrin davamlı inkişafı vacibdir. Dayanıqlı inkişafın sistemli idarə olunması böyük nəzəri və praktiki əhəmiyyət kəsb edir, çünki davamlı inkişaf üçün həm ayrı-ayrı ölkənin, həm də onun regionlarının potensialından səmərəli istifadə yalnız regional sistemlərin transformasiyası üçün şüurlu, məqsədyönlü və elmi əsaslarla fəaliyyət göstərməklə mümkündür.

Qarabağ bölgəsinin iqtisadi inkişafı nə qədər meqalayihə kimi çətin görünsə də, bu ərazilər yenidən qurulacaq. Unutmayaq ki, Azərbaycan müstəqillik əldə edəndə, ilk növbədə, zavod və fabrikləri maliyyələşdirə bilməyəndə xaricdən investisiya axını var idi. Özəlləşdirmə prosesində çoxlu xarici investorlar iştirak edib. Ona görə də indiki şəraitdə dövlətin inkişaf konsepsiyasının əsas istiqaməti infrastrukturun qurulması, əsaslı tikinti işlərinin aparılması və orada fəaliyyətə maraq yaradılması üçün vergi güzəştlərinin tətbiqidir.

Tamamilə dağılmış rayonlarımızda infrastruktur tikintisinə innovativ yanaşma tətbiq edilməlidir. Çünki dağılmış ərazinin tamamilə yenidən qurulması məqsədəuyğun olmazdı. Bəzi ərazilərdə onilliklər boyu davam edən meşə yanğınları və talanlar bölgənin ekosisteminin dağılmasına səbəb olub. Bununla bağlı insan sağlamlığı, mövcud ekosistemin bərpası və gələcək nəsillərə ötürülməsi baxımından ekoloji bərpa planı hazırlanmalıdır.

Azərbaycanda iqtisadi mühitin şəffaflığı istiqamətində 2019-cu ildən özəl sektora tətbiq edilən vergi güzəştləri bir çox sahələrdə nailiyyətlərin əldə olunmasında təsirli qüvvə rolunu oynayıb. Lakin 1 ilə yaxın pandemiya dövrünün olması özəl sektorun həm istehsal gücünə, həm də gəlirlərinə ciddi təsir göstərib. Bütün bunların fonunda vergi güzəştləri ilə bağlı böyük gözləntilər özünü doğrultmadı. Lakin bu, Qarabağ bölgəsinin inkişafına şamil edilərsə, böyük marağın qazanılması qaçılmazdır. Hətta bütövlükdə bu bölgənin vergidən azad olunması investisiyaların artmasına səbəb ola bilər. Vergi güzəştlərinin tətbiqi təkcə bu bölgəyə deyil, həm də yerli və xarici investorlara marağı artıracaq. Gömrük güzəştləri tətbiq olunarsa bu bölgənin bərpası üçün tələb olunan tikinti və digər malların daha ucuz təchizat zəncirinə sahib olacayıq.

Sərmayənin hansı sahələri əhatə etməsinə Qarabağ regionunun relyefi, təbii sərvətləri, əhalisinin əksəriyyətinin əqli və təhsil səviyyəsi təsir edir. Təbii ki, ilk növbədə kənd təsərrüfatı bu rayon üçün vazkeçilməz sahədir. Çünki işğaldan əvvəlki dövrdə kolxoz və sovxozların istehsal potensialına nəzər salmaq kənd təsərrüfatının

danılmaz perspektivləri ideyasını özündə saxlayır. Yalnız aqrar sektora yanaşma mənim fikrimcə nəzərdə tutulduğu kimi həyata keçirilərsə, daha səmərəli nəticə verər. Bildiyimiz kimi, işğal zamanı düşmənlərimiz taxıl tələbatının 60 faizini Qarabağda əkilən taxıl hesabına ödəyiblər. Ağdam rayonu ərazisində bir çox kəndlər yerlə-yeksan edilərək əkin sahələrinə çevrildi. Bu kəndlərin yaşayış məntəqələrini dəyişdirməklə biz mövcud sahələrdə taxıl əkib-becərməyi davam etdirə və ölkənin taxıla olan tələbatını daxili imkanlar hesabına təmin edə bilərik.

İşğaldan azad edilmiş ərazilərdə 443 min hektar əkin sahəsi var. Məcburi köçkünlərin təxminən 80%-i kənd yerlərinin sakinləridir. Mövcud torpaqlar pay torpaqlarına bölünərsə, hər ailəyə 3-4 hektara yaxın əkin sahəsi ayrılır. Lakin digər rayonlarda pay torpaqlarının ayrılması təcrübəsindən bilirik ki, bir çox kəndlilər uzun illərdir ki, nə əkəcəklərini müəyyən edə bilmirlər. Ya pay torpaqlarını satır, ya da istifadəsiz saxlayır. Bu, aqrar sahənin inkişaf tempinə ciddi maneədir. Bu kimi halların qarşısını almaq üçün tədbirlər planı hazırlanmalıdır.

Qarabağ bölgəsi üçün kənd relyefindən əlavə, turizm sahəsi ən perspektivli sahələrdən biridir. Qarabağın təbiəti və onun müalicəvi suları burada turizmin inkişafı üçün müstəsna şərait yaradır. Lakin son illərin statistikasına nəzər salsaq görərik ki, istirahət məqsədilə xaricə gedənlərin sayı hər il ölkəyə daxil olanlardan daha çoxdur. Bunun əsas səbəblərindən biri də turizm sektorunda qiymətlərin yüksək olmasıdır. Qarabağ bölgəsində turizm sektorunda müalicəvi turizmin inkişafı ölkədən hər il müalicə məqsədilə Rusiya və Ukraynaya axın edən əhalinin gətirilməsinə kömək edə bilər.

Dünyada alternativ və ekoloji enerji mənbələrindən geniş istifadə olunur. Alternativ elektrik stansiyalarının tikintisi Qarabağ regionunun bərpası prosesində nəzərə alınacaq daha ucuz və bərpa olunan enerji mənbələrinə malik olmağımıza kömək edə bilər.

İşğaldan azad olunmuş rayonlarda genişmiqyaslı yenidənqurma və tikinti prosesləri ilə əlaqədar olaraq tikinti materialları üçün təbii ehtiyatların aşkarlanması,

bir neçə rayonda tikinti materialları istehsal edən təsərrüfat sahələrinin salınması daha ucuz malların əldə olunması, əhalinin məşğulluğunun təmin edilməsi və iqtisadi artım prosesinə mütləq töhfə verəcəkdir.

Qarabağ bölgəsinin simasını qoruyan xalçaçılıq, iplik, ipək və toxuculuq istehsalının yaradılması əhalinin mövcud təhsil səviyyəsinə uyğun məşğulluğunu təmin edəcək, həm ölkə daxilində, həm də xaricdə rəqabətqabiliyyətli məhsul istehsal edəcək.

Sosial-iqtisadi inkişaf təkcə iqtisadi amillərdən qaynaqlanmır. Bu inkişaf növü də ekoloji davamlılıq, insan inkişafı, ədalət və sosial rifah kimi sütunlara əsaslanır. İşğaldan azad olunmuş bölgələrdə turizm sektorunun inkişafı zamanı ekoloji və sosial amilləri qorumaq vacibdir. Mousavi'nin (2017) araşdırmalarına gürə, otel və mehmanxana şəbəkələri ev sahibi icmalara güclü ekoloji təsir göstərir: su, enerji və kimyəvi maddələrin həddindən artıq istehlakı və ya yüksək tullantı istehsalı. Digər sənaye sahələri ilə müqayisədə otel sənayesinin ekoloji cəhətdən həssas olduğu danılmazdır. Rosa və Silva (2017) öz araşdırmalarında, mehmanxanalar və otellər qlobal istiləşməyə və təbii ehtiyatların tükənməsinə kömək edə biləcək ekoloji təsirlər yaratdığını qeyd edirlər. Buna görə də sosial-iqtisadi inkişafa töhfə vermək üçün Qarabağ regionunda quruculuq işləri zamanı aşağıdakı məsələlər diqqətdə saxlanılmalıdır:

İşğaldan azad olunmuş bölgələrdə sosial-iqtisadi inkişafın yaradılması böyük maliyələşmə tələb edir. Nəzərə almaq lazımdır ki, bu cür müəssisələrin qurulması maliyyələşmə ilə yanaşı həm də peşəkar yanaşma tələb edir. Bunu nəzərə alaraq xarici invastisiyaların cəlb olunması, beynəlxalq otel zəncirlərinin bu əraziləri gətirilməsi vacib hal alır. Bu zaman turizmin inkişafı və sosial-iqtisadi inkişaf daha sürətli hal alar. Lakin bu cür kapitallaşmanın mənfi təsirləri də mövcuddur. Bunlar aşağıdakılardır:

- işğaldan azad olunmuş bölgələrə çoxmillətli turizm və otel zəncirlərinin cəlb edilməsi yerli əhali üçün turizm istismarının iqtisadi faydalarını azalda bilər. Çünki

bu cür müəssisələr idarəetmə və qərar qəbuletmə vəzifələrini tutmaq üçün xarici işçi qüvvəsini işə götürməyə və tez-tez əməliyyat mənfəətlərini mənşə ölkələrinə köçürməyə meyllidirlər.

**Cədvəl 2: Qarabağ regionunda quruculuq işləri zamanı diqqətdə saxlanılmalı olan məsələlər**




**Mənbə:** Məmmədov E.Q., 2013 kitabının məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

İşğaldan azad olunmuş bölgələrdə sosial-iqtisadi inkişafın yaradılması böyük maliyələşmə tələb edir. Nəzərə almaq lazımdır ki, bu cür müəssisələrin qurulması maliyyələşmə ilə yanaşı həm də peşəkar yanaşma tələb edir. Bunu nəzərə alaraq xarici invastisiyaların cəlb olunması, beynəlxalq otel zəncirlərinin bu əraziləri gətirilməsi vacib hal alır. Bu zaman turizmin inkişafı və sosial-iqtisadi inkişaf daha sürətli hal alar. Lakin bu cür kapitallaşmanın mənfi təsirləri də mövcuddur. Bunlar aşağıdakılardır:

- işğaldan azad olunmuş bölgələrə çoxmillətli turizm və otel zəncirlərinin cəlb edilməsi yerli əhali üçün turizm istismarının iqtisadi faydalarını azalda bilər. Çünki bu cür müəssisələr idarəetmə və qərar qəbuletmə vəzifələrini tutmaq üçün xarici işçi

qüvvəsini işə götürməyə və tez-tez əməliyyat mənfəətlərini mənşə ölkələrinə köçürməyə meyllidirlər.

- Qarabağ regionunda turizm tələbini artıra bilər və tələb olunan sosial, ekoloji və hətta iqtisadi davamlılığa əks-məhsuldar olan əməliyyat strategiyalarını seçə bilər,

- gözlənilməz və əlverişsiz hadisələr, məsələn, terror hücumları hallarında, çoxmillətli otellər vətənpərvərlik və ya regional səbəblərə daha az sadiqdirlər və sərmayələri kapitalsızlaşdırmaq üçün daha çevik olurlar. Bu da turizm bazarında bərpası çətin olan depressiya yaradır,

- bir çoxu hər şeyi əhatə edən bu tip otellər ətraf mühitin pisləşməsinə, əhalinin həyat keyfiyyətinin aşağı düşməsinə və ya yerli mədəni şəxsiyyətin itirilməsinə səbəb ola bilər.

Bu kontekstdə, bu otellərin müsbət təsirlərini kapitallaşdırmaq və mənfi təsirləri azaltmaq üçün inkişaf etməkdə olan ölkələr tərəfindən həyata keçirilən fəaliyyət planını təklif edirlər. İnkişaf etməkdə olan ölkələrin atmalı olduğu ilk addım transmilli otel şirkətlərini cəlb etməyin faydalı olub-olmadığını müəyyən etməkdir. Cavabın müsbət olub-olmamasından asılı olmayaraq, iştirakın dövlət-özəl tərəfdaşlıq, birbaşa investisiya, idarəetmə müqavilələri, françayzinq vasitəsilə necə həyata keçiriləcəyi müəyyən edilməlidir.

Azərbaycanın işğaldan azad olunmuş bölgələrində bütün bu investisiya təkliflərini və onların sosial-iqtisadi təsirlərini izləmək üçün qruplar yaradılmalıdır və dövlət tərəfindən daimi, ciddi nəzarət olunmalıdır.

### 1.3. İşğaldan azad olunmuş ərazilərdə turizmin inkişaf amilləri

Turizm çox böyük, canlı, dinamik və inkişaf yönümlü sənayedir. Turizm sənayesi insanların istirahət, sosial və ya kommersiya məqsədləri üçün ölkə daxilində və ya xaricdə başqa yerlərə səyahət edərkən ehtiyac duyduğu bütün biznes fəaliyyətlərinin məcmusudur.

Qarabağ bölgəsində regional səviyyədə turizmin inkişafı işsizlik problemini həll etməyə və rəqabət üstünlüyünü itirmiş fəaliyyətləri (xüsusilə kənd təsərrüfatı sektorunda) əvəz etməyə kömək edə bilər. Bundan əlavə, turizm sektoru nəqliyyat, ticarət, tikinti, yaşayış, qida/içki sənayesi və digər xidmətlər kimi bir çox iqtisadi fəaliyyətlərə (birbaşa və dolayı) təsir göstərir. Ona görə də turizm bölgələrinə sərmayə qoyuluşu böyük gəlir potensialına malikdir.

Bu gün turizm sektoru artan əhəmiyyətə malik iqtisadi fəaliyyət sahəsini təşkil edir. Turizm sektorunun dünya ölkələrinin milli gəlirlərinə təsiri artmaqdadır və beynəlxalq təsirə malik Covid-19 kimi böyük siyasi böhranlar, təhlükəsizlik problemləri və ya epidemiyalar baş vermədikcə sektorda inkişafın davam edəcəyi gözlənilir.

Bu kontekstdə Azərbaycanın turizm sektorundan Qarabağın yenidən qurulması və tikintisində güc elementi kimi istifadə etməsi vacibdir. Çünki Azərbaycanın "Qarabağı işğaldan xilas edib, dünyanın turizm cənnətinə çevirəcəyik" ritorikasının ilk addımı 2020-ci ilin payızında atılıb. İndi ikinci mərhələyə keçid olunub və "qafqazın cənnətini dünyanın turizm mərkəzinə çevirmək" addımı qalmaqdadır. Bu istiqamətdə qoyulacaq investisiyalarla Qarabağın turizm potensialı mühüm güc elementi olacaq.

Qarabağ regionunda inkişaf mexanizmləri formalaşdırılarkən davamlı olaraq inkişaf prinsiplərinə əsaslanması, regional turizm sənayesi üçün inkişaf olunması zərurəti nəzərə almalıdır. Turizm resurslarına turizmin fəaliyyətinin təşkili strukturunu müəyyən edən amil kimi baxılır (Məmmədov E.Q., 2013 : s.74).

Bu, hökumətin bütün səviyyələri üçün dövlət qurumlarından konkret turizm regionlarında və bütünlükdə ölkədə davamlı inkişaf üçün əsas meyarlara cavab verən strategiya hazırlamağı tələb edir (Cədvəl 3).

**Cədvəl 3: Qarabağ regionunda davamlı inkişaf meylləri**

| Davamlı inkişaf meylləri | Fəaliyyət istiqaməti |
|---|---|
| Turizm resurslarının konservasiyası və onların bərpası | Daha çox istehsal üçün bölgənin turizm ehtiyatlarını qorunması. Təbii altsistem strukturunun qorunması, habelə yerli əhalinin maddi və mənəvi olan ehtiyaclarının ödənilməsi |
| Ekoloji turizmi planlaşdırmaq | İnkişaf prosesi zamanı obyektlərin optimal tipini və yerini təyin edərkən ətraf mühitin bütün elementlərini diqqətlə izlənilməsi, təhlil edilməsi və nəzərə alınması |
| Yerli əhalidə maraqların qarşılıqlı əlaqəsi və onların nəzərə alınması | Yerli əhalinin inkişaf prosesi və planlaşdırmaya cəlb olunması. Yerli əhaliyə fayda verən turizm növlərinin inkişaf etdirilməsi |
| Keyfiyyətli turizmin yaradılması | Bölgənin ekoloji amillərə zərər verməyəcək şəkildə turistlərə yönləndirməsini təşkil etmək |
| İqtisadi və sosial faydaları | Bütün növlər üzrə adambaşına kapital artımı (təbii, maddi, sosial, maliyyə, insan) |

**Mənbə:** Nəbiyev E.S., 2016 kitabının məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

2010-2020-ci illər ərzində Azərbaycana gələn ümumi turistlərin sayı Qrafik 1-də əks edilmişdir. Burdakı məlumatlarından görmək olar ki, 2019-cu il ən yüksək göstəriciyə sahib olubdur.

**Qrafik 1: Turizm məqsədi ilə Azərbaycana gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin 2010-2020ci illər üzrə sayı, (min nəfər)**




**Mənbə:** Azərbaycanda turizm Statistik məcmuə 2021, http://www.stat.gov.az source/tourism/

Rekord göstərici təxminən 2,863 milyon nəfər olmuşdur ki, həmin göstərici 2019-cu ildə qeydə alınmışdır. İlk sıralarda Rusiya və Gürcüstan ərazilərindən gəlmiş turistlər təşkil etməkdədir (Qrafik 1).

Azərbaycan dövlətinin Qarabağın işğaldan azad olunmuş bölgələrində sosial-iqtisadi inkişaf üçün bir çox sahələrdə, xüsusən də infrastruktur, turizm, təhsil və marketinq sahələrində addımlar atacağı gözlənilir. Bu kontekstdə yüksək turizm potensialına malik olan Qarabağın yaxın illərdə bir çox xəstəliklərin müalicəsində istifadə oluna biləcək mühüm sağlamlıq turizmi mərkəzinə çevrilməsi istiqamətində addımlar atılır. Qarabağda turizmin inkişafı ilə birlikdə Rusiya, Gürcüstan, Qazaxıstan, Türkmənistan, Özbəkistan kimi keçmiş sovet ölkələrindən, eləcə də Türkiyə, İran, Pakistan, İsrail kimi Avropa ölkələrindən və BƏƏ və Qətər kimi ərəb ölkələrindən Qarabağa turistlərin gəlməsi gözlənilir.

Qarabağın turizm potensialının aktivləşdirilməsi həm Azərbaycan iqtisadiyyatına ciddi maliyyə qazancı verəcək, həm də işğaldan azad edilmiş şəhərlərə səfər edəcək xarici turistlər rayonun mədəni sərvətləri ilə yaxından tanış olacaqlar. Eyni zamanda, bu turistlər həm ölkələrinə qayıtdıqdan sonra tanışlarına danışaraq, həm də sosial şəbəkələrdə paylaşaraq Azərbaycan mədəniyyətini və sivilizasiyasını dünyaya tanıtacaqlar. Beləliklə, turizm sektoru mədəni diplomatiya funksiyasını yerinə yetirməklə bütün dünyanın Qarabağı cazibə mərkəzi kimi görməsində rol oynayacaq.

Sosial –iqtisadi inkişafın əsas elementlərindən biri olan turizm dünyanın ən böyük inkişaf templərinə malik ən böyük sənaye sahələrindən biridir. O, ölkələrin sosial-iqtisadi və siyasi inkişafında mühüm və şübhəsiz müsbət rol oynayır. Bundan əlavə, bəzi hallarda turizm mədəniyyətlərin və həyat tərzinin müxtəlifliyi haqqında məlumatlılıq yaratmaqla daha geniş mədəni anlaşmaya töhfə verə bilər.

Sosial və iqtisadi inkişafın əsas hərəkətverici qüvvəsi qərb cəmiyyətində xidmət sektoru (əsasən turizm) kimi tanınır. ABŞ, Böyük Britaniya, Kanada kimi ölkələr öz iqtisadiyyatlarını dəstəkləmək üçün onun üstünlüklərindən istifadə

edirlər. Turizm sektorunun sosial təsirləri xarici təsirlər nəticəsində icma, cəmiyyət və ya qurum üzvləri arasında münasibətlərdə dəyişikliklər kimi müəyyən edilir. Turizm sektorunun iqtisadi təsirləri ümumiyyətlə üç kateqoriyaya bölünür: birbaşa, dolayı və induksiya:

- Birbaşa təsirlərə turizm biznesinə təsir edən pul əməliyyatları daxildir. Bu kateqoriyaya maaşlar, vergilər, materiallar və xidmətlər daxil olmaqla ödənilən istənilən məbləğ aiddir.
- Dolayı təsirlər turizm sənayesini mal və xidmətlərlə təmin edən sənayelərin regionunda qiymətlərdə, gəlirlərdə və ya məşğulluqda baş verən dəyişikliklərdir.
- İnduksiya edilmiş təsirlər birbaşa və ya dolayı yolla turizm sənayesindən alınan vəsaitlərin ev təsərrüfatlarının istifadəsi nəticəsində iqtisadi fəaliyyətdə baş verən dəyişikliklərdir.

İşğaldan azad olunmuş bölgələrdə sosial-iqtisadi nəticələr baxımından əhalinin artımı, məşğulluğun strukturunun dəyişməsi, gəlir səviyyəsinin yüksəlməsi və s. turizmin təsirləri kimi götürülə bilər.

Turizm artan valyuta gəlirləri kimi müsbət iqtisadi töhfələr verir ki, bu da Qarabağ regionunda sonradan tədiyyə balansını yaxşılaşdırır, geniş bacarıq səviyyələrinə malik iş yerləri yaratmaqla xidmət sektorunu genişləndirir, investisiya kapitalını cəlb edir, infrastrukturun inkişafını, iqtisadi inkişafı və uzunmüddətli perspektivləri stimullaşdırır.

İşğaldan azad olunmuş regionlarda iqtisadi fəallığı stimullaşdırdığı kimi, həm də ölkənin ümumi iqtisadi vəziyyətini yaxşılaşdırırması və ÜDM-in artması bu sektorun inkişafının nəticələri olacaq.

Hökumət Qarabağ regionunda xidmət sektorunu inkişaf etdirməklə və xarici turistlər üçün sərt viza siyasətini sadələşdirməklə ev təsərrüfatlarının gəlirlərinin artırılmasına kömək edə bilər.

İşğaldan azad olunmuş bölgələrdə xidmət sektorunun inkişaf dərəcəsi çoxsaylı iqtisadi və sosial amillərin təsirindən, yəni əhalinin gəlirlərinin artımından, viza

rejimindən, gömrük qaydalarından, valyuta nəzarətindən, sanitar qaydalardan, nəqliyyat xidmətlərinin səviyyəsinin yüksəldilməsindən, nəqliyyat xidmətlərinin səviyyəsinin yüksəldilməsindən, turizmin inkişafından asılıdır.

Turizmin iqtisadi təsiri çoxdan öyrənilib və mühüm tədqiqat sahəsi olaraq qalır. İqtisadi təsir göstərdi ki, tədqiqatların əksəriyyəti turizm sənayesinin iqtisadi əhəmiyyətini vurğulamaq üçün turizm fəaliyyətinin əsas və ikinci dərəcəli təsirlərini qiymətləndirməyə yönəlib (Comerio N. və Strozzi F., 2019: s.123). İqtisadi fəaliyyətlərin təsirlərini tam başa düşmək üçün ekoloji, sosial, iqtisadi və institusional ölçüləri özündə birləşdirən geniş çoxölçülü konsepsiya olan davamlılıq ilə bağlı öyrənilməlidir. Sosial-iqtisadi davamlılıq anlayışı fərdi rifah və sosial-iqtisadi rifahı nəzərdə tutur və beləliklə, region əhalisinin dolanışıq vasitələrini təmin edən

Turizm əksər dövlət qurumları tərəfindən ölkələri üçün bir fürsət pəncərəsi kimi görünür. Əlaqələndirici xüsusiyyətinə görə, o, həmişə tikinti, ticarət, nəqliyyat, telekommunikasiya və ya kənd təsərrüfatı kimi bir çox digər dəstəkləyici iqtisadi fəaliyyətlərin böyüməsi ilə nəticələnir. Bu amillər Qarabağın işğaldan azad olunmuş bölgələrində turizmin inkişafını vacib edir. Turizm fəaliyyətləri, şübhəsiz ki, xarici investisiyaları cəlb etməklə, yerli məşğulluğu, biznes dövriyyəsini, vergi gəlirlərini təşviq etməklə, insanların köçkünlüyünü və qlobal cəmiyyətə mənsubiyyət hissini stimullaşdırmaqla, ətraf mühitin qorunması üçün məlumatlılığı artırmaqla iqtisadiyyata təsir göstərir. Beləliklə, turizmin inkişafına diqqətin iqtisadi, sosial, siyasi, mədəni, ekoloji və texnoloji nəticələri var.

Qarabağ regionuna turistlər və yerli əhali arasında artan maraq nəticəsində bu sektora daha çox investisiya yönləndirilməsinə və təkmilləşdirməyə ehtiyac var. Xüsusən də nəzərə alınmalıdır ki, silahlı münaqişə zamanı bir çox ərazilərimiz dağıdılıb. Ona görə də işğaldan azad edilmiş ərazilərdə turizmin şaxələndirilməsi və təşviqi üçün səmərəli strategiya və fəaliyyət planı yaratmaq lazımdır.

Qarabağ regionunda turizmdən yeni sosial-iqtisadi amil kimi istifadə etmək üçün həm dövlətin, həm də özəl sektorun iştirakına ehtiyac var. Yerli təşəbbüsləri

stimullaşdırmaqla yanaşı, maliyyələşdirmə və texniki yardım üçün beynəlxalq təşkilatları və şirkətləri də cəlb etmək lazımdır. Bundan əlavə, dövlər turistlər üçün bu sahə ilə bağlı qurumlarını və onların səmərəli informasiya təminatı sistemini inkişaf etdirməlidir.

Azərbaycanda turizm sektoru daim inkişaf edir. Buna görə də Qarabağın işğaldan azad olunmuş rayonlarında turizmin iqtisadiyyatın digər sektorları ilə əlaqəsini araşdırmaq vacibdir. Bu məsələnin əhəmiyyəti ondan irəli gəlir ki, turizm fəaliyyəti ətraf mühitə, mədəni irsə və bütövlükdə cəmiyyətə təsir edir.

Qarabağ regionunda 30 il davam edən münaqişə turizmin inkişafı üçün lazım olan abidələrə, yollara, yaşayış yerlərinə və s. böyük ziyan vurub. Bərpa işləri yerli idarələr, beynəlxalq maliyyə institutları və təşkilatları tərəfindən aparılmalıdır.

İşğaldan azad edilmiş ərazilərdə turizmin təşviqi planı olmalıdır. Bu plan lazımi infrastrukturu təmin etməli və belə inkişaf üçün lazım olan insan resurslarını təkmilləşdirməlidir.

Yerli hakimiyyət orqanları Qarabağ regionunda mövcud bazar sistemini təkmilləşdirməli və unikal turizm növlərini cəlb etməlidir. Bu, beynəlxalq təşkilatlar və bu sektorla məşğul olan şirkətlərlə əməkdaşlıq şəraitində həyata keçirilməlidir. Azərbaycanda ekoturizm, macəra turizmi, macəra tur paketləri və s. kimi yeni fəaliyyətlərə diqqət yetirmək vacibdir. Bunlara Azərbaycanın inkişaf etdirilməli olan ənənəvi turizm fəaliyyətləri daxildir. Bu tədbirlərdə yerli əhalinin də daha çox iştirakına ehtiyac var.

Azərbaycanın işğaldan azad olunmuş rayonlarında turizm sektorunun fəaliyyətini və bu istiqamətlərdə layihələri dəstəkləmək üçün beynəlxalq təşkilatlarla işi artırmaq lazımdır. Məsələn, ölkənin informasiya şəbəkəsinin inkişafı ilə birlikdə ənənəvi turizmi inkişaf etdirmək olar. Dövlət turistləri cəlb edə biləcək marketinq kanalları yaratmalıdır. Turistlərin qərarlarına təsir edən amillərlə bağlı araşdırmalar aparmaq lazımdır. Hazırda Azərbaycanın turizm sektorunda marketinq

tədqiqatları mərkəzi yoxdur və bu sektorda qeyri-hökumət birlikləri və təşkilatları tərəfindən tətbiqi elmi-tədqiqat işləri aparılmalıdır.

İşğaldan azad olunmuş ərazilərə turistlərin səfərlərini asanlaşdırmaq üçün infrastrukturun yaradılması vacibdir. İnfrastruktura mehmanxanalar, restoranlar, otellər və s. daxildir. Ona görə də bu infrastrukturun yenilənməsinə ehtiyac var.

Qarabağ zonasının təbiəti haqqında məlumat vermək və ziyarətçilərə təqdim olunan məlumatların keyfiyyətini tənzimləmək lazımdır. Məsələn, turistlər adətən burada çox vacib olan təhlükəsizlik məsələləri barədə məlumat tələb edəcəklər.

Qarabağ regionunda inkişaf etdirilən turizm sektorunda onun davamlılığı baxımından işləyə bilən kadrlar yetişdirilməlidir. Bunun üçün bu sahədə kadr hazırlığının səviyyəsinə nəzarət edən sistem tələb olunur. Hazırda belə təlim proqramları yoxdur və onlar yaradılmalıdır.

İşğaldan azad olunmuş bölgələrdə turizmin inkişafının monitorinqi sistemi yaratmaq lazımdır.

Dövlət Qarabağ regionunda turizmin inkişafı üçün beynəlxalq maliyyə institutlarını inkişaf etdirməlidir. Bu, çox mühüm məsələdir. Dövlət bu işdə Dünya Bankının maliyyə yardımından istifadə edə bilər.

İşğaldan azad edilmiş ərazilərdə bütün turizm sektorunun inkişaf etdirilməsi vacibdir. Hökumət bunun üçün xüsusi plan hazırlamalıdır. Bu, turizmdən iqtisadi amil kimi istifadə etməyə imkan verəcək. Bundan əlavə, həm iş yerləri yaradacaq, həm də turistlərin mədəniyyətimiz haqqında məlumatlılığı artıracaq və xaricdən investorları cəlb edəcəkdir. Nəhayət, xalqımızın bu sahədə bilik və maarifləndirmə səviyyəsini yüksəldəcək.

Son illərdə turizmin sosial və mədəni təsirləri ilə yanaşı, beynəlxalq siyasi və iqtisadi əlaqələrdəki rolu da çox mühümdür. Turizm beynəlxalq mədəni və sosial ünsiyyəti təmin etdiyi üçün inteqrativ təsir göstərir. Bununla yanaşı turizm sektoru həm məşğulluğu təmin edən, həm də xarici valyuta axını xüsusiyyətləri ilə milli iqtisadiyyata töhfə verir. Beləliklə, beynəlxalq turizm hərəkatından böyük pay alan

inkişaf etmiş ölkələrdə olduğu kimi inkişaf etməkdə olan ölkələrdə də turizmə verilən önəm getdikcə artır. Turizm bir çox dünya ölkələrində olduğu kimi Azərbaycan üçün də istehsal, məşğulluq, tanıtım və valyuta mübadiləsi baxımından çox mühüm bir qaynaqdır.

Bölgəyə gələn turistlər getdikləri bölgələrdə müəyyən müsbət və mənfi təsirlər buraxırlar. Bu təsirlər iqtisadi, mədəni, ekoloji və sosial-iqtisadi təsirlər adı altında araşdırılır. Qarabağın yerli əhalisi ilə turistlər arasında qarşılıqlı əlaqə turizmin təsirinin müsbət və ya mənfi olmasını müəyyən edəcək. Müsbət qarşılıqlı əlaqə region əhalisi üçün böyük əhəmiyyət kəsb edir. Çünki turizm fəaliyyətinin olduğu bölgələrdə fəaliyyət göstərən müxtəlif sektor qrupları turizmdən bəhrələnir. Turizm digər sektorlara hərəkətlilik təmin edən bir sektordur. Bu baxımdan işğaldan azad olunan ərazilərdə turizmin inkişafında sahibkarların əhəmiyyəti böyükdür. Sahibkarlar turizmin gəlirliliyindən faydalanmaq üçün yeni müəssisələr açır və yeni gəlir mənbələri yaradırlar. Bu, turizmi təmin etdiyi iqtisadi təsirləri vurğulayan bir sənaye halına gətirir. Məşğulluq yaratmaq və gəlir əldə etmək kimi təsirlər iqtisadi tərəfdə daha önəmlidir. Bununla belə, digər tərəfdən, bir çox araşdırmalarda turizmin təkcə iqtisadi təsirlərə malik olmadığı, onun mədəni, ekoloji və sosial-iqtisadi təsirlərinin də daxil edilməsinin zəruriliyi vurğulanır.

İnsanlar hər il həm ölkə daxilində, həm də xaricə səyahət etdikləri üçün bu, böyük regionlararası əhalinin hərəkətinə səbəb olur. Bu vəziyyət Qarabağ regionunda sosial-iqtisadi təsirlərə verilən əhəmiyyəti artırır. Turizm sektorunun sosial-iqtisadi təsirləri ölkədən ölkəyə, bölgədən bölgəyə, turizm fəaliyyətinin intensivliyinə, turizmin növünə, turizmin inkişaf sürətinə və bölgə əhalisi ilə sosial-iqtisadi səviyyəyə görə dəyişir. İşğaldan azad olunmuş bölgələrin geniş turizm imkanlarını nəzərə aldıqda bu faydaların maksimum həddə çatacağını proqnozlaşdırmaq çətin deyil.

# II FƏSİL. İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRDƏ TURİZMİN İNKİŞAF POTENSİALININ DƏYƏRLƏNDİRİLMƏSİ

## 2.1. İşğaldan azad edilmiş ərazilərdə turizmin regional xüsusiyyətlərinin analizi

Son illər Azərbayacanda turizmin inkişafı üçün böyük işlər görülsə də, ölkənin ən böyük turizm potensialına sahib olan Qarabağ və ətraf rayonları uzun müddət işğal altında olduqlarına görə bu proseslərdən kənarda qalmışdırlar. İlin dörd fəslində valehedici təbiəti ilə bütün qonaqları heyran edən, saf havası, tarixi abidələri, müalicəvi suları ilə hər kəsin dilində dastana çevrilən bu diyarımız artıq düşmən tapdağından azad olunmuşdur. Bu gün əsas mövzulardan biri işğaldan azad edilmiş ərazilərdə turizmin inkişaf etdirilməsi və regional xüsusiyyətlərinin araşdırılmasıdır. Həmin bölgələrin tarixi inkişafına nəzər saldıqda burada əsasən turizm və aqrobizneslə bağlı sahələrin ərazidə yaxşı inkişaf etdirilə bilmə potensialı məlum olur.

İşğaldan azad edilmiş ərazilərdə turizm infrastrukturunun qurulması üçün ilk növbədə burada təhlükəsizliyin təmin olunması, əhalinin geri qayıtması, yaşayışın təmin olunması və infrastrukturun bərpa edilməsi lazımdır. Bütün bunlara paralel olaraq, bu bölgələrdə turizm məhsulları yaradılacaqdır.

İşğaldan azad edilmiş ərazilərdə turizmin inkişaf etdirilməsi və regional xüsusiyyətlərinin artırılması üçün investisiyaların cəlb edilməsi lazımdır. İlkin olaraq nəqliyyat infrastrukturu, mülki infrastruktur, daha sonra investisiyalar üçün şərait yaradılmalıdır.

İşğaldan azad olunmuş ərazilər turist axınları üçün əlverişli coğrafi şəraitə sahibdir. İrandan Xudafərin, Türkiyədən Naxçıvan vasitəsilə turistlərin buraya gəlməsi mümkün olacaqdır. İşğaldan azad olunmuş ərazilərə əsasən bu iki istiqamətdən turistlərin axını gözlənilir. Bundan başqa, Azərbaycanda turizmin prioritet bazarı mövcuddur ki, bu istiqamətdə də işlər aparılması nəzərdə

tutulmuşdur. İşğaldan azad olunmuş ərazilərə turizm marşrutları ilə əlaqəli müxtəlif ideyalar lazımdır ki, bunlar hazırlanacaq strategiyada öz əksini tapacaqdır.

İşğaldan azad edilmiş ərazilərdə turizmin regional xüsusiyyətlərini analiz etmək üçün son illərdə xüsusilə inkişaf etmiş ölkələrdə regional inkişaf modeli kimi uğurla istifadə edilən klasterləşmə modelinin əsas xüsusiyyətləri və bu modelin regionda tətbiqi araşdırılır. Klasterləşmə modelinin əsas xüsusiyyəti eyni və ya oxşar məhsulları istehsal edən, bu istehsalla bağlı müxtəlif xidmətlər göstərən, tədqiqat aparan, vasitəçilik edən və təchizatla məşğul olan, regional ixtisaslaşmanı təşviq edən digər maraqlı tərəflərin könüllü şəkildə qruplaşdırılmasıdır. Klasterləşmə haqqında elmi fikirlərin tarixi A.Smit və A.Marşall kimi iqtisadçıların araşdırmalarına gedib çıxsa da, bu model daha çox 1990-cı ildən, xüsusən də M.Porterin tədqiqatlarından sonra öyrənilməyə başlanmışdır.

Azərbaycanın işğaldan azad olunmuş bölgələrində iqtisadiyyatın bütün sahələrində tətbiq oluna bilən modelin mühüm xüsusiyyətlərindən biri də burada özəl sektorun mərkəzi rol oynaması, dövlət və vətəndaş cəmiyyəti sektorları ilə sıx əməkdaşlığa əsaslanmasıdır. Ölkəmizdə klasterləşmə istiqamətində atılan ən böyük addımlardan biri aqroparkların və KOB klaster şirkətlərinin yaradılmasıdır. Aparılan araşdırmalar göstərir ki, işğaldan azad edilmiş ərazilərin çoxsaylı xüsusiyyətləri nəzərə alınmaqla burada aqrobiznes və turizm üçün klasterlər formalaşdırmaq olar.

Klaster anlayışı və bu klasterial inkişafla bağlı olaraq çox müxtəlif təriflər və bunlar arasında fərqlər olmasına baxmayaraq, bu təriflərin arasında hər kəsin nəzərinə çarpacaq ümumi nöqtələr də çoxdur. Həmin klasterin yaranmasında birdən çox ixtisaslaşmış müəssisələrin olmağı, eyni zamanda bu müəssisələrin yaxın coğrafi ərazilərdə yerləşməsi nəticəsində və həmin coğrafi ərazidəki müəssisələrin arasında olan qarşılıqlı əlaqələr, asılılıq və maraqların olması, o cümlədən şəbəkələrin qurulması kimi tələblərin mövcudluğu bütün təriflərdə də nəzərə çarpan xüsusiyyətlər kimi sadalana bilər. Bu klasterdəki müəssisələrin hər birinin yerində seçim zamanı onların coğrafi baxımdan baxdıqda bir-birinə yaxın yerləşməsi vacib

şərtlərdəndir. Çünki həmin müəssisələrin bir-birini tamamlayıcı təsirləriylə, habelə kommunikasiyanın mümkünlüyü ilə bir müəssisənin təqdim etdiyi bəzi məhsuldan digər müəssisənin istifadəsində və faydalanmasında buradakı fəaliyyətlər zamanı coğrafi yerləşmənin klaster üçün mühüm əhəmiyyət kəsb etdiyinə şahid ola bilərik.

Azad edilmiş bölgələrdə turizmin regional xüsusiyyətlərinə görə klasterlərin təşkilində əsas problemlərdən biri də bütövlükdə klaster yanaşması fəlsəfəsi ilə ziddiyyət təşkil edən ona daxil ediləcək müəssisələrin coğrafi məsafəsidir. Lakin azad edilmiş bölgələrdə, daha dəqiq desək, Yuxarı Qarabağ və Kəlbəcər-Laçın iqtisadi zonalarında demək olar ki, bütün infrastruktur və müəssisələr yenidən qurulduğundan müxtəlif ərazilərdə klasterlərin yaradılması üçün böyük potensial mövcuddur. Məlum olduğu kimi, tikinti materialları və dağ-mədən ilə bağlı bəzi sənaye sahələri istisna olmaqla, bu rayonların əsas iqtisadi fəaliyyəti turizmdir.

Ümumiyyətlə isə klasterləşdirmənin ərazidəki üstünlükləri aşağıdakı kimi sıralamaq olar: (Davuthan D., 2013).

• Regional investisiyaların təşviqi və iqtisadi artım,

• Dövlət və özəl sektorlar üzrə birgə daha səmərəli əməkdaşlıqların təmin olunması,

• KOB-lərdə məhsuldarlıqların artırılması,

• KOB-lərin satış, istehsal, texnologiya, təşkili və idarəetməsi, o cümlədən ticarətin liberallaşdırılması və ərazidə iqtisadi qloballaşma kimi mövzuların çeviklik və adaptasiya qazanmasına kömək etməsi,

• Uyğun inkişaf variantları təqdim olunması və inkişaf prosesinin daha da asanlaşdırılması,

• Xammal, xidmət və ərazidə ixtisaslı işçi qüvvəsinə olan asan və sürətli çıxışın təmin olunması.

İşğaldan azad olunmuş ərazilərdə turizmin regional xüsusiyyətlərini analiz edərkən məlum olur ki, bu ərazilərdə bir çox turizm klasterinin yaradılması mümkündür. İlk olaraq Füzuli-Xocavənd-Şuşa-Laçın istiqamətində, digər klaster

paralel olaraq isə Füzuli-Cəbrayıl-Zəngilan istiqamətindədir. Üçüncü klasterə Zəngilan-Qubadlı, dördüncü klasterə Kəlbəcər-Laçın, beşinci klasterə isə Bərdə-Ağdam daxil edilmişdir. Regional xüsusiyyətləri analiz etdikdə ayrı-ayrılıqda turizm potensiallı ərazilər üzrə Şuşa yüksək qiymətləndirilir. Şuşada mədəni tədbirlərin təşkili və festivallar turzim məhsulları kimi təqdim oluna bilər. Laçın-Kəlbəcər klaster istiqamətində təbiət, sağlamlıq turizmi və qış turizmi, Qubadlı-Zəngilanda klasterində təbiət və mədəniyyət, Füzuli-Ağdam-Cəbrayıl klasterində də mədəniyyət və işğal nəticələrini göstərilməsi üçün bəzi tikililəri saxlanılmaqla bura gələcək turistlər üçün nümayiş olunması lazımdır (Mükərrəmoğlu M., 2021: s.11).

Tarixi Azərbaycan torpaqlarından olan Zəngəzuru keçməklə Naxçıvan MR, o cümlədən Azərbaycanın digər ərazilərini özündə birləşdirəcək nəqliyyat xətləri çəkilməsi ilə ölkəmizin Türkiyəyə uzanacaq quru yollarının tədqiqat bölgəmizdə kömək edəcək, klasterləşmə baxımından da qardaş ölkənin təcrübələrindən geniş formada istifadə ediləcəkdir.

Azad edilmiş ərazilər üzrə turizmin regional formada xüsusiyyətləri nəzərə alınaraq bölgələrdə regionların sosial-iqtisadi inkişafında müxtəlif dövlət proqramlarından, layihələrin icra edilməsindən və bir çox müsbət nəticələrdən əldə ediləcəyi planlaşdırılıb. Bütün bunlara əsasən regional inkişaf modeli kimi klaster modeli seçilərsə bölgələrdə pozitiv nəticələr verə bilər. Həmin model bu regionun sosial-iqtisadi vəziyyətindən, infrastrukturundan, firma və müəssisələr arasında olan təşkilatlanmanın səviyyəsindən, o cümlədən insanların dünya görüşündən və düşüncə tərzi kimi müxtəlif amillərdən asılı olmuşdur. Modelin uğurlu olmasının sirri ərazidəki müəssisələrin və firmaların ixtisaslaşması səviyyəsindən asılıdır və bu təşkilatların könüllü formada klaster yaratmağı səylərindən də asılıdır. Azərbaycanın işğaldan azad edilmiş bölgələrində isə həmin müəssisə və təşkilatlar üçün yaranma mərhələsində ərazidəki coğrafi təmərküzləşmə ola biləcəyi üçün həmin problem həll edilmiş olacaq.

İşğaldan azad edilən ərazilərdə turizmin regional olaraq mümkün qədər inkişafı üçün özəl sektoru həmin prosesə cəlb oluna və sadəcə dövlət sektoru tərəfindən reallaşdırıla bilən təşəbbüslərdən çəkinmək lazımdır. Bundan başqa, kənd yerlərində təşkilati fəaliyyətlərinin qeyri-kafi və az olması, burada təmərküzləşmə fəaliyyətlərindən uzaqlaşmasına səbəb ola bilər. Bu səbəbdən də, təşkilatlanma həm dəstəklənməli, həm də dayanıqlı olmalıdır.

Turizmin bir çox iqtisadi, sosial və mədəni təsirləri və regional inkişafa verdiyi töhfələrlə yanaşı, təbii mühitə də əhəmiyyətli təsirləri var. Təklifi təşkil edən amillərdən şüursuz şəkildə istifadə edilməsi, turistik təbii sərvətlərdən səmərəsiz istifadə edilməsi, təbiətin məhv edilməsi və ətraf mühitin çirklənməsi turizmin mənfi təsirləridir. Bunlar həm də yeni xərclərin yaranmasına səbəb olur və turizmin davamlı olmasına mane olur. Bununla belə demək olar ki, turizm özü ilə təbiətin, tarixin, mədəni dəyərlərin qorunması şüurunu gətirir.

İşğaldan azad edilmiş ərazilərdə turizmin regional xüsusiyyətlərini analiz edərkən bütün müsbət və mənfi təsirlər nəzərə alınmalıdır. Əsas müsbət ekoloji təsirlər təbii, arxeoloji və tarixi obyektlərin mühafizəsi, ətraf mühitin keyfiyyətinin yaxşılaşdırılması, ətraf mühitin dəyərinin artırılması, infrastruktur imkanlarının inkişafı; əsas mənfi təsirlər su, hava və səs-küy çirkliliyi, vizual çirklənmə, bərk tullantılar, ekoloji deqradasiya və bioloji müxtəlifliyin azalması, arxeoloji və tarixi obyektlərin zədələnməsi və torpaqdan istifadə problemləridir. Sosial-iqtisadi müsbət təsirlər, iqtisadi faydalar, mədəni irsin qorunması, mədəni dəyərlərin yenilənməsi, qarşılıqlı mədəni mübadilə; mənfi təsirlər potensial iqtisadi faydaların itirilməsi, məşğulluğun pozulması, izdihamın həddindən artıq olması və yerli əhalinin imtiyazlarının itirilməsi, mənfi mədəni təsirlər və sosial problemlərdir. Bu müsbət və mənfi dəyişikliklərdən ən çox təsirlənən insanlar həmin bölgədə yaşayan yerli insanlardır. Bu baxımdan yerli əhalinin regional turizmə baxışı vacibdir.

Bir çox iqtisadi, sosial, psixoloji və mədəni faydaları olan turizm, təbii ehtiyatların həddindən artıq istifadəsi və yanlış yer seçimi nəticəsində Azərbaycanın

işğaldan azad olunmuş bölgələrində təbii ərazilərin, tarixi dəyərlərin və sahilyanı ərazilərin məhvinə səbəb ola bilər. Turizm potensialının əsasını təşkil edən təbii, mədəni və tarixi dəyərlərin uzunmüddətli perspektivdə qorunması üçün görüləcək planlaşdırma işlərinin hər mərhələsində yerli əhalinin iştirakının təmin edilməsi vacibdir.

Azərbaycanın işğaldan azad olunmuş bölgələrində turizmin regional xüsusiyyətlərini analiz etmək üçün ilk öncə turizmin özünün xüsusiyyətlərini dəyərləndirməkl lazımdır. Turizmin xüsusiyyətlərini analiz edən Cultural Memory Culture and Art Site onun müsbət və mənfi ekoloji və fiziki təsirlərini aşağıdakı başlıqlar altında izah edir. Turizmin fiziki mühitə müsbət və mənfi təsirlərini daha dəqiq aşağıdakı cədvəldə görə bilərik:

**Cədvəl 4: Turizmin fiziki mühitə müsbət və mənfi təsirləri**

| Turizmin fiziki mühitə müsbət təsirləri | Turizmin fiziki mühitə mənfi təsirləri |
|---|---|
| Turizmin mövcud tarixi abidələrin və strukturların bərpası və ya təkmilləşdirilməsi üçün hərəkətverici qüvvə olması. | Turizm fəaliyyəti təbiəti məhv edir və fiziki tarazlığı pozur. |
| Köhnə əsərlərin bu gün yeni kimlikləri ilə yaşamasını təmin edəcək tənzimləmələrin edilməsini təşviq etməsi. | Tarixi qorunan ərazilərin çirklənməsinə səbəb olur. |
| Ətraf mühitin mühafizəsi üçün görülən tədbirlər ətraf mühitin planlaşdırılması və idarə olunması ilə ətraf mühitin mühafizəsinə töhfə verir və sürətləndirir. | Turizm məhsullarının və xidmətlərinin istehsalı və istehlakından yaranan zərərli qalıqlar çox vaxt təbiəti çirkləndirməklə yanaşı, insanların sağlamlığı üçün də təhlükə yaradır. |
| | Səs-küy sürətini artıraraq səs-küy çirklənməsinə səbəb olur. |
| | Turizm bölgədə konsentrasiyanın yaratdığı qeyri-müntəzəm urbanizasiyaya səbəb olur. |

**Mənbə:** Salıfov T.M., 2021 kitabının məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Azərbaycanın işğaldan azad olunmuş bölgələrində turizmin inkişafı öz növbəsində regional inkişaf üçün böyük təkan yaradacaqdır. Regional inkişaf regionun öz resurslarının səfərbər edilməsi, sahibkarlığın təşviqi, regionun gəlir və məşğulluq səviyyəsinin artırılması və həyat keyfiyyətinin yaxşılaşdırılması kimi

müəyyən edilə bilər. Başqa bir tərifə görə, regional inkişaf regionda gəlir artımı ilə yanaşı, sosial-iqtisadi strukturun dəyişməsidir.

Regional inkişaf iqtisadi inkişafın həm məhsulu, həm də prosesi hesab olunur. İqtisadi inkişafın məhsulu sayılan regional inkişaf dedikdə, regionda iş imkanlarının, rifah səviyyəsinin, investisiyaların həcminin, yaşayış səviyyəsinin və iş şəraitinin yaxşılaşdırılması nəzərdə tutulur. Bir proses olaraq bu, sənayenin dəstəklənməsi, infrastrukturun təkmilləşdirilməsi və əmək bazarlarının inkişafı kimi qəbul edilir. Hədəflənmiş bölgə və sektorlarda investisiya səviyyəsini artırmaqla bu bölgələrdə iqtisadi inkişafı da nəzərdə tutur.

Ümumilikdə, regional inkişaf, bütün ölkədə regionların, ətraf bölgələrin və regionun dünya ilə qarşılıqlı əlaqədə baxışını nəzərə alan, iştirak və davamlılığı əsas prinsip kimi qəbul edən və əhalinin rifahını yüksəltməyi hədəfləyən tədqiqatlar toplusudur. Regional inkişaf siyasətləri ümumiyyətlə ölkələrin ya az inkişaf etmiş, ya da zəif inkişaf etmiş regionlarına tətbiq edilir və onlar bəzi xüsusi regionlar üçün xüsusi regional inkişaf siyasətləri və ya layihələri ilə inkişafa hazırlanır. Azərbaycanın işğaldan azad olunmuş bölgələri ölkənin az inkişaf etmiş bölgələri hesab olunduğuna görə regional inkişaf layihələri, o cümlədən turizm sektoru ilə bağlı inkişaf layihələri ümumi siyasətlərə əlavə olaraq, yalnız hazırlanmış bölgə üçün bəzi fiziki, iqtisadi və sosial planlar quraraq, bölgənin inkişafı üçün tətbiq olunan vasitələrin bütöv və ardıcıl şəkildə idarə olunmasını təmin edir (Sevinç H., 2012: s.9).

Ölkələr dünyada baş verən ümumi iqtisadi və sosial transformasiyalara uyğunlaşmaq, mənfi təsirləri aradan qaldırmaq və imkanları qiymətləndirmək üçün milli ehtiyaclarına uyğun olaraq öz regional siyasətlərini müəyyən edirlər.

Azərbaycanın işğaldan azad olunmuş bölgələrində turizmin regional xüsusiyyətlərinin dəyərləndirilməsi fonunda bölgənin xüsusiyyətlərinə, inkişaf potensialına və özünəməxsus problemlərinə uyğun olaraq fərqli məkan planlaşdırma yanaşmalarına əməl edilməli, fərqli regional siyasətlər hazırlanaraq qətiyyətlə

həyata keçirilməlidir. Bütün ölkə üzrə qəbul edilən iqtisadi və sosial siyasət qərarlarının regional inkişaf siyasətlərinə uyğun olması təmin edilməlidir.

Azərbaycanın işğaldan yeni azad olunmuş ərazilərində turizm zonaları yaradılarkən həyata keçiriləcək iqtisadi və sosial siyasətlər və investisiya planları bölgənin coğrafi və geoiqtisadi amilləri nəzərə alınmaqla həyata keçirilməlidir.

Turizm sektorunda regional inkişaf layihələri təkcə qeyri-regional resurslardan istifadə etməklə uğurlu ola bilməz. Bölgənin coğrafi vəziyyəti, infrastruktur xidmətləri, ətraf mühitin dəstəkləyici gücü, kapital toplanması, sahibkarlıq qabiliyyəti, tələb strukturu və səviyyəsi, stimullaşdırıcı tədbirlər və demoqrafik struktur həmin regionda turizmin inkişafı üçün zəruri amillərdir.

Bir çox iqtisadi, sosial və mədəni faydaları olan turizm sektoru təbii ehtiyatların həddindən artıq istifadəsi və yanlış yer seçimi nəticəsində təbii ərazilərin, tarixi dəyərlərin və sahilyanı ərazilərin məhvinə səbəb ola bilər. Turizm potensialının əsasını təşkil edən təbii, mədəni və tarixi dəyərlərin uzunmüddətli perspektivdə qorunması üçün turizm sahəsində həyata keçiriləcək planlaşdırma işlərinin hər mərhələsində yerli əhalinin iştirakının təmin edilməsi vacibdir.

Azərbaycanın işğaldan azad olunmuş bölgələrində turizmin regional xüsusiyyətlərini dəyərləndirərkən hər bir regionun öz sahə strukturu, təbii və insan resursları potensialı nəzərə alınmalıdır.

Turizm sərmayələri regionların turistik təchizat imkanları ən yaxşı iqtisadi və sosial fayda verə biləcək şəkildə qiymətləndirilməli və buna uyğun planlar hazırlanmalıdır. Bunlarla yanaşı, ətraf mühitin və təbiətin mühafizəsi nəzərə alınmaqla ətraf mühitin çirklənməsinin qarşısının alınmasına maksimum diqqət yetirilməlidir. Kənd təsərrüfatı və meşə sahələrindən sənaye və turizm üçün istifadə etməklə real istehsal dinamikasına mənfi təsir göstərəcək planlaşdırmadan çəkinmək lazımdır.

## 2.2. İşğaldan azad edilmiş ərazilərin turizm-rekreasiya potensialı

Azərbaycanın işğaldan azad olunmuş bölgələrində turizm və rekreasiya zonalarının yaradılması üçün mühüm turizm potensialı mövcuddur. Dövlət başçımız hələ də ötən ilin sosial-iqtisadi inkişafının yekunlarına həsr edilən videokonfransda Qarabağın çox zəngin turizm potensialının mövcudluğunu vurğulamışdır. Buna görə indidən turizm marşrutları işlənilməli və hazırlanmalıdır ki, bu da bölgəyə qayıdandan sonra əhalinin vaxt itirmədən turizm sektorunda inkişafına kömək edəcək. Qarabağ bölgəsinin turizm potensialı ilə turizm marşrutlarının təşkili, ərazidə tarixi abidələr beynəlxalq sərgilərdə göstəriləcək ki, bu da bölgəni dünya üçün çox cəlbediciliyini təqdim etmiş olacaq. Nəzərə ala bilərik ki, Qarabağ bölgəsi füsunkar, çox zəngin, təkrarolunmaz təbiəti ilə, o cümlədən tarixi abidələri mövcuddur, bu da Azərbaycanın əsas turizm zonalarından birincisinə çevriləcək potensialının olduğunu göstərir.

Ölkə rəhbərinin tapşırığı ilə işğaldan azad olunan ərazilərimiz turizm inkişaf strategiyası hazırlanmışdır. Sözügedən sənədə əsasən, turizm məhsullarının hazırlanması bu ərazilərdə turizm infrastrukturunun qurulması paralel aparılacaqdır. Əlbəttə də, turistlərin təhlükəsizliyinin təmin edilməsi başlıca vəzifələrdəndir. Əhalinin geri qayıdışı, burada yaşayışın və infrastrukturun bərpası nəticəsində burada turizm məhsulları da yaradılacaqdır.

İqtisadiyyat Nazirliyi tərəfindən azad edilmiş torpaqların bərpası və yenidən qurulması üçün tarazlı və dayanıqlı inkişafının təmin olunması, ölkə iqtisadiyyatına inteqrasiyası, yüksək standartlara cavab verəcək sosial rifahın nail olunması üçün aidiyyəti dövlət qurumlarının rəyi də nəzərə alınmalıdır. Bunun üçün "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinin 2021-2025-ci illər üzrə bərpası və dayanıqlı inkişafı Dövlət Proqramı"nın layihəsi hazırlanmışdır (https://medeniyyet.az/page/news/57941/Isgaldan-azad-edilmis-erazilerin-berpasi-ve-inkisafi-uzre-besillik-proqram-hazirlanib.html, 2021).

Azad olunmuş ərazilərdə turizm resurslarının qiymətləndirilməsində, turizm nümayiş obyektlərində uçotun aparılması üzrə, turizm potensialdan daha da səmərəli

istifadə edilməsi, dağ, sağlamlıq və mədəni turizm üzrə resursların araşdırılması nəticəsinə bağlı “Turizm resurslarının qiymətləndirilməsi” adında ilkin metodologiya sənədi hazırlanmışdır. DTA tərəfindən bu layihə sənədinin genişləndirilməsi, habelə işğaldan azad olunmuş bölgələrində turizm resurslarının daha çox qiymətləndirilməsi nəticəsində işlərin aparılması planlaşdırılmışdır. Qarabağ bölgəsi üzrə Füzuli hava limanı burada dayanıqlı turizmin inkişafı üçün mühüm layihə hesab olunur. Əlavə olaraq, AR Prezidentinin Sərəncamıyla Əhmədbəyli–Füzuli–Şuşa üzrə avtomobil yolunun layihələşdirilməsi və tikintisi Şuşa, Xocavənd və Füzulinin gələcək turistlərin hər biri üçün əlçatan olmasını təmin edəcəkdir. Bunlarla yanaşı, Kəlbəcər-Laçın istiqaməti üzrə Göygöl rayonundan başlayan magistral yolun salınması nəzərdə tutulmuşdur. Əraziyə turistlərin əlçatanlığının təmin olunması üçün dəmir yolu xətlərinin bərpasında mühüm hesab olunur və bununla da bağlı ümumi uzunluq 45 kilometrlik Bərdə-Ağdam dəmir yolu xəttinin bərpası üçün işlər həyata keçirilməkdədir. İşğaldan azad olunmuş ərazilərdə dayanıqlı turizmin, habelə turizm klasterlərinin inkişafı, onların təşviqedici və tənzimləyici siyasətlər mexanizminin işlənilməsi, turizm infrastrukturu, innovativ texnologiyalarının tətbiqi, dövlət-özəl sektorların əməkdaşlığı və başqa prioritet istiqamətlər əsasında burada Qarabağ Turizm Strategiya layihəsi hazırlanmışdır.

Turizm və rekreasiya anlayışları bir çox tədqiqatlarda ayrı-ayrı tədqiqat mövzuları kimi görülür və çoxlu ortaq cəhətləri və oxşarlıqlarına görə bir-birini tamamlayan mövzular kimi də qiymətləndirilir.

Rekreasiya, latınca "recreatio" sözündən meydana gəlib, yenilənmək və ya yenidən qurulmaq deməkdir. Dilimizdə “asudə vaxtın qiymətləndirilməsi” mənasına gəlir. Başqa sözlə, insanların gündəlik etməli olduqları işləri yerinə yetirdikdən sonra boş vaxtlarında edə biləcəkləri bir fəaliyyətdir.

Turizm və rekreasiyanın kəsişdiyi ərazilər kimi onların fərqli olduğu sahələr də var. Zamandan asılı olaraq bir-birini əvəz edən turizm və rekreasiya fəaliyyətlərinin bir-birinə qarışması və ya ayrı-ayrı nöqtələrdə olması zaman keçdikcə çətinləşir.

Rekreasiya və turizm anlayışlarını aydınlaşdırmaq üçün asudə vaxta yanaşmalar vacibdir. Bu yanaşmalar tədqiqatçıların öz baxışları və araşdırmaları ilə üst-üstə düşdüyündən asudə vaxt anlayışını təriflə aydınlaşdırmaq mümkün olmamışdır.

Turizm ümumiyyətlə rekreasiya fəaliyyəti kimi müəyyən edilir və təhlil edilir. Bu təhlilə əsasən, insanların öz yerlərindən kənarda daimi məskunlaşmamaq şərti ilə müxtəlif məqsədlərlə səyahətləri və getdikləri yerdə məskunlaşmasından irəli gələn ehtiyaclarını ödəmək, dincəlmək və əylənmək turizmin əsas məqsədidir.

Turizm və rekreasiya zonalarının yaradılmasında Qarabağ regionunun müxtəlif əraziləri üzrə çox böyük turizm potensialı mövcuddur. Ərazi üzrə Şuşanın zəngin təbiət ətrafında olmaq, tarix-mədəni turizm obyektləri üzrə yaxınlıq, turizm fəaliyyətlərindəki mümkünlük və əsas magistral yola yaxınlıq baxımından imkanlar yüksək qiymətləndirilməkdədir. Qarabağda turizm və rekreasiya zonası kimi Kəlbəcərdə İstisu bölgəsinin çox böyük imkanları var. Uzun müddətdir ki, İstisu bulağından sağlamlıqda və kurort məqsədində istifadə edilməsi bu ərazinin inkişafına zəmin yaradır. Bundan başqa, Kəlbəcərdə Vəng, Zülfüqarlı, İstisu kimi təbiət ərazilərində bir çox rekreasiya imkanları var. Zəngilan, Xocavənd, Kəlbəcər, Laçın və Qubadlı bölgələrində yaradılan və planlaşdırılan rekreasiya və turizm zonalarının əraziləri DTA tərəfindən müəyyən olunmuşdur. Turizm və rekreasiya zonalarından başqa, Şuşadakı Xarıbülbül və Qarabağdakı mehmanxanalar ən son standartlara uyğun olaraq təmir olunmuşdur.

Bunların fonunda, Dubay şəhərində “ATM 2021” (Arabian Travel Market 2021), o cümlədən də, Moskvada “OTDYKH Leisure” turizm sərgisində Qarabağın turizm potensialı üzrə təqdim olunub. DTA tərəfindən qəbul olunan “İşğaldan azad edilmiş ərazilərdə turizmin inkişafına dair Fəaliyyət Planı” üzrə strateji inkişafın, turizmin inkişafının və təşviq edilməsinin, turizm və rekreasiya zonalarının yaradılmasının, sağlamlıq və qış turizminin resursları üzrə layihələndirilməsinin və digər bir çox tədbirlərin icrası nəzərdə tutmuşdur (https://azertag.az/xeber/Turizm_ve_rekreasiya_zonalarinin_yaradilmasi_uchun_Qarabagda_muhum_turizm_potensiali_movcuddur-1897937, 2021).

Qarabağ ərazisi dağlıq və yastı relyeflərin növbələşməsi, qolları və kanalları ilə dolu çayların gözəlliyi və gözəl mənzərənin müxtəlifliyi ilə səciyyələnir. Burada həm ənənəvi, həm də ekstremal turizm növlərinin inkişafı üçün bütün lazımi imkanlar var. Rayon ərazisində çoxlu arxeoloji və etnoloji abidələr, o cümlədən kurqanlar və torpaq-arxeoloji məzarlıqlar, qədim yaşayış məskənləri, daş dövrünə aid mağara yerləri, o cümlədən mis, gümüş və qızılın mədən və filiz yataqları vardır.

İşğaldan əvvəl turizm və rekreasiya inkişaf potensialına görə fərqlənən Qarabağ və ətraf rayonlar Ermənistanın işğalı nəticəsində təhlükəsizlik problemləri ilə üzləşib, infrastrukturun dağıdılması səbəbindən də turizmin təşkili xeyli vaxt aparmışdır.

Təbii olaraq, Qarabağ və ətraf rayonları üzrə turizm imkanlarından tam formada istifadə üçün 3 əsas amil təmin olunduqdan sonra mümkün olacaqdır. Bunlara ərazilərdə təhlükəsizliyin təminatını, əhalinin oraya qayıdışını və infrastrukturun yaradılmasını göstərmək olar. Yaxın gələcəkdə də bütün bunlar həll edildikdən sonra Azərbaycanın gözəl ərazisi Qarabağda turizm sektoru üzrə önəmli töhfələr verəcəyi şübhə doğurmur. Həmçinin inamla demək olar ki, Qarabağ regional əhəmiyyətli olacaq, daha sonrasında da dünya əhəmiyyətli ekoturizm mərkəzinə çevriləcəkdir. Azad olunan bölgələrdə həyat yenidən dirçələcək və bu bölgələrin qısa zamanda regionun ən cəlbedici turizm istiqamətlərindən biri olacaq.

Artıq işğaldan azad olunan torpaqlarımızda infrastrukturun qurulması üzrə işlərə start verilmişdir. Bununla paralel formada Qarabağın turizm potensialının bütün dünyaya tanıdılması üçün maarifləndirici işlərə, habelə bölgənin turizm imkanlarından faydalanmağa başlamaq üçün ilkin araşdırmalar aparılmalıdır. Qarabağda turizm sektorunun inkişafı üçün bölgənin iqtisadi baxımdan qısa bir zamanda dirçəlməsi ilə müsbət təsirlər göstərəcək.

Torpaqlarda təhlükəsizliyin təminatı, habelə əhalinin oraya qayıdışı və burdakı infrastrukturun yaradılmasını təmin etdikdən sonra Qarabağ və onun ətraf rayonlarında yeni-yeni turizm məhsulları yaradılaraq ölkəyə gələn turistlərə təqdim

ediləcək. Bu zonada ilk mərhələ olaraq daxili turizmin təşkili vacib istiqamət olacaq. Həmin bölgələrdə ilk mərhələ üzrə ziyarət tipli turizmin təşkili, habelə infrastruktur tam bərpa olunduqdan sonra da istirahət turizminin təşkil olunması nəzərdə tutulur.

İşğaldan azad edilən ərazilərdə turizm sektorunun çox növləri –dağ, eko, qış, sağlamlıq, ov turizminin inkişafı üçün geniş imkanlar mövcuddur. Bu qədim tarixə sahib olan bölgəsində özünün flora və faunası, tarixi mədəni-dini abidələri, özünə məxsus mətbəxi, qədim qalaları, füsunkar körpüləri, yaşıl meşələri, bulaqları və bir çox görməli məkanları ilə gələcək turistləri cəlb edəcəkdir.

Təbii ehtiyatlar ilə zəngin olan Qarabağda müxtəlif növ ekstremal turizmlə yanaşı, o cümlədən aqroturizm, yaşıl turizm olaraq təşkil etmək mümkündür. Bütün bu sayılanlar turizmin inkişafında geniş perspektivlər yaradacaq. Kəlbəcər rayonu üçün qış turizmi ideal məkandır. İşğaldan azad edilən ərazilərimizdə turizm sektoru üzrə infrastrukturun qarşılıqlı əlaqə şəklində qurulmalıdır. Şuşa şəhəri Azərbaycan turizminin əsas simvol şəhərlərindən biri olacaqdır. Azərbaycan mədəniyyətinin ən gözəl incisi olan Şuşanın bir çox tarixi abidələri, özünəməxsus arxitekturası ilə yeni turizm marşrutlarının yaradılmasına şərait verəcəkdir. Şuşa mülayim iqlim şəraitinə sahib, mineral suları isə müalicəvi xüsusiyyətlərlə zəngindir. Bunlar da ərazidə turizm üçün çox mühüm istiqamətlərdir. Burada tanınmış bəstəkarlarımız, muğam ustadlarımız, incəsənət xadimlərimiz yetişib. Bunlar da imkan verir ki, Şuşa şəhərində maraqlı turizm xidmətləri üzrə marşrutlar yaradaraq bir çox turistlərimizə təqdim edəcəyik.

Kəlbəcərin İstisu qəsəbəsində hələ işğaldan əvvəl Ümumittifaq əhəmiyyətli olan iki böyük sanatoriya fəaliyyət göstərmişdir. Hər il burada 50 min nəfərə yaxın insan müalicə olunur və istirahət edirdilər. Burada yerləşən "İstisu" mineral suları vasitəsilə insanın həm xarici, həm də daxili xəstəliklərini tam müalicə etməyə kömək edir. Hətta burada kurort və mineral sudoldurma zavodları tikilmişdir. Deməli, Kəlbəcərdə turizm potensialı həmçinin də Gürcüstanın turizm mərkəzləri üzrə güclü rəqib ola biləcək böyük potensiala malikdir (Əkbərov C., 2021).

Bu ərazilərdə, mütəxəssislərin fikrincə, Kəlbəcərdə olan relyef dünyanın ən heyrətamiz kanatların inşasında, ən maraqlı turizm xidmətlərinin qurulmasında imkan verəcəkdir. Potensialından düzgün istifadə ilə burada Qafqazın ən füsunkar turizm mərkəzini yaradılacaq, Gürcüstana səyahət edən turist axınının istiqamətlərini dəyişməyimiz mümkündür.

Turizm həm vaxt, həm də pul baxımından araşdırıldığında böyük bir alış hadisəsidir. Bu mənada turizm daha geniş çeşiddə maddi elementlər yaratsa da, gündəlik həyatımızda rekreasiya fəaliyyətləri insanların normal istehlak vərdişlərinə daxildir. Turizm fəaliyyətləri üçün vaxt məhdud olsa da, rekreasiya fəaliyyətində davamlılıq və müntəzəmlik var. Turizm istehlakçıdan onu əldə etmək üçün evini tərk etməyi tələb etsə də, istirahət fəaliyyətlərində belə bir öhdəlik yoxdur. İstirahət fəaliyyəti həm də şəxsin evində və ya evinə çox yaxın ərazidə həyata keçirilə bilər. Ancaq turizm hadisəsində iştirak edən şəxs məhsulun yerləşdiyi yerə gedərək turistik məhsula çata bilər.

Azərbaycanın işğaldan azad olunmuş ərazilərində turizm rekreasiya potensialını müəyyən etmək üçün, ilk öncə, müxtəlif məqsədlər üçün istirahət edən insanları fəaliyyətlərdə iştirakına təsnif etmək olar. Sosial, mədəni, iqtisadi və ekoloji şərtlər onlara səbəb ola bilər. İstirahət məqsədlərinə görə təsnifatı aşağıdakı qrafikdəki kimi bölmək olar:

**Qrafik 2: Azərbaycanın işğaldan azad olunmuş ərazilərində istirahət məqsədlərinə görə təsnifatı**




**Mənbə:** Əvəzli K.N., 2016 kitabının məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Təsnifat başqa bir şəkildə aparılarkən zaman, yer və yaş kimi bir çox amillər nəzərə alınır. Bunlardan başqa digər istirahət növləri də var:

- macəra məqsədli istirahət fəaliyyətləri;
- müalicəvi istirahət fəaliyyətləri;
- kamp istirahəti;
- təhsil istirahət fəaliyyətləri;
- şəhər istirahəti;
- kənd istirahəti.

Azərbaycanın işğaldan azad olunmuş ərazilərində rekreasiya potensialını müəyyən etmək üçün beynəlxalq ədəbiyyat araşdırıldığında bəzi tədqiqatlarda müxtəlif üsulların işlənib hazırlandığı görünür. Bu üsullara Clawsonun (1959) iqtisadi və sosial məsələlər daxil olmaqla istirahət zonalarına gələn ziyarətçilərin

sorğusunu və onların xidmət haqqını ödəmək istəyinə görə inkişaf etdirdiyi metodu, Knetschin (1969) açıq havada istirahətə tələbatın qiymətləndirilməsi metodunu, Lierin (1971) İstirahət zonalarında geofiziki və landşaft elementlərinin çəkilərinə görə qiymətləndirmə metodu və fiziki, bioloji, sosial və idarəetmə faktorlarına əsaslanan rekreasiya imkanlarını idarə etmək üçün Clark və Stankey (1979) tərəfindən işlənib hazırlanmış metod nümunə kimi göstərilə bilər.

Ümumiyyətlə, yuxarıda göstərilən üsullardan istifadə edərək rekreasiya potensialını müəyyən etmək üçün beynəlxalq və milli tədqiqatlar aparılır. Kolumbiyada bir ərazinin rekreasiya potensialını tapmaq üçün Kliskey (2000) ərazidəki hər bir kriteriyaya uyğun rekreasiya münasibət şkalası işləyib hazırladı və nəticələri coğrafi informasiya sistemi ilə uyğunlaşdırmaqla uyğunluğunu yoxladı. Chhetri və Arrowsmith (2008) oxşar araşdırma apardılar və GIS (coğrafi informasiya sistemi) ilə Avstraliyadakı Qrampians Milli Parkının rekreasiya potensialını müəyyən etməyə çalışdılar. Verdin, Lee və Chavez (2008) Meksikada bir ərazinin rekreasiya potensialını müəyyən etmək üçün yerli sakinlər arasında sorğu keçirdilər. Fleishman və Feitelson (2009) İsraildə iki meşə rekreasiya zonasının rekreasiya potensialını müəyyən etmək üçün ziyarətçilərlə sorğu keçirdilər.

Azərbaycanın işğaldan azad olunmuş bölgələrində turizm və rekreasiya potensialını müəyyən etmək üçün dünya təcrübəsində istifadə olunan bu metodlardan istifadənin yararlı olacağını düşünürəm. Azərbaycanın görkəmli şəxsləri, turizm və iqtisadçı ekspertlər işğaldan azad olunan bölgələrin turizm potensialı haqqında öz ararşdırmalarını aparıb fikirlərini bölüşmüşlər.

Onu da qeyd etmək lazımdır ki, Kəlbəcər-Laçın iqtisadi rayonunda olan Minkənd, İstisu, Tutqunçay kimi bir çox mineral bulaqlar, o cümlədən iqlim-balneoloji şəraiti, dağ meşələrindən kurort məqsədləri kimi istifadə oluna biləcəkdir. Burada olan mineral su yataqlı bizə məlum olan 8 yeraltı su yatağı var. Onlardan 3,093 min m3/gün həcmli ehtiyata sahib olan 7 yataqlı Kəlbəcərdə və 4,300 min

m3/gün həcminə sahib olan 1 yataqlı Laçında yerləşir. Bütün bunlar iqtisadi rayonda turizm potensialının inkişafı üçün böyük perspektivlər yaradır.

Qarabağ üzrə turizm bir çox layihələrin icrasında mümkün turizm üzrə Qubadlının füsunkar təbiətindən, burdakı Həkəri çayının imkanlarından istifadə olunmaqla bu potensialı daha da artırmaq olar. Həmin torpaqlarda, həmçinin Kəlbəcərdə gözəl istirahət üçün mərkəzlərlə yaşıl turizmi daha da inkişaf etdirmək olar (https://xalqqazeti.com/mobile/az/news/65933, 2020).

Kəlbəcər rayonu qış turizmində ideal məkandır. Azad edilən torpaqlarımızda turizm infrastrukturunun qarşılıqlı əlaqəsi formasında qurulmasını mühüm sayaraq hesab olunur ki, Şuşa şəhəri Azərbaycanın turizmində simvol şəhərlərindən biri olacaqdır. Onun sözlərinə əsasən, təkcə Şuşada olan "Çətir" şəlalələri turistləri oraya getməyə sövq edəcəkdir.

Azərbaycan mədəniyyətinin incisi sayılan Şuşanın tarixi abidələri, burdakı özünəməxsus arxitektura yeni turizm marşrutlarının yaradılmasında geniş imkanlar verəcəkdir. Şuşa şəhəri mülayim iqlim şəraitində, mineral suların müalicəvi xüsusiyyətləri ilə fərqlənir. Bunlar da turizmdə çox yararlı istiqamətlərdəndir. Burada tanınmış bir çox muğam ustadları, bəstəkarlar, incəsənət xadimləri yetişmişdir. Bütün bunlar şərait verir ki, Şuşa torpaqlarında maraqlı turizm xidmətləri üzrə marşrutlar yaradılsın və turistlərimizə təqdim edilsin (https://525.az/news/155466-qarabagda-turizmin-inkisafi-genis-imkanlar-var-rey, 2020).

Laçın rayonu üzrə "içki sənayesi-turizm-rekreasiya" kimi üçbucaq yaratmaq mümkündür. Kifayət qədər geniş rekreasiya ilə fərqlənən Laçındakı İlıqsu mühüm müalicəvi əhəmiyyətli olması ilə mineral bulağı, mühüm floraya və faunaya sahib, sahəsi ümumi 21 min hektardan da çox olan Laçın yasaqlığı həmin ərazilərin turizm imkanlarını genişləndirəcəkdir. Laçında olan bu imkanlardan istifadə ilə "içki sənayesi-turizm-rekreasiya"sı olan bu üçbucağının yaradılmasına nail ola bilərik. Müasir tələblərə uyğun formada qura bilsək, həmin üçbucaq zəncirvari şəkildə

reaksiya effekti ilə turizmdə daha cəlbedici amil olacaqdır (https://525.az/news/156745-lacin-ehate-etdiyi-erazilere-gore-strateji-iqtisadi-ehemiyyete-malikdir, 2020).

Xudafərin körpüsünə yaxın eyni adda turizm mərkəzləri yaradılmaqla, 1000 illik qədim tarixə sahib Xudafərinin bu zonadakı inkişafa ancaq elə öz tarixi adı ilə geniş töhfələr verə bilər.

### 2.3. Bölgədə turizm infrastrukturunun yaradılması ilə bağlı problemlər və həll yolları

Dünyada baş verən proseslər nəticəsində insanların istək və ehtiyacları daima və sürətlə dəyişir və bu, təbii olaraq insanları dəyişikliklərin mərkəzində tutan turizmə də təsir edir. Əvvəllər kütləvi turizm adlandırılan və daha çox istirahət məqsədi daşıyan turizm hərəkətləri bu dəyişikliklərlə alternativ turizm növlərinə çevrilmişdir. İşgüzar səfərlər dünyanın bir çox istiqamətlərində iqtisadi və qeyri-iqtisadi faydalara mühüm töhfə kimi tanınır.

Turizm sektoru Azərbaycanın bir çox regionlarının iqtisadiyyatının getdikcə daha vacib tərkib hissəsinə çevrilir. Lakin lazımi infrastrukturun olmaması onun potensialından tam istifadə etməyə imkan vermir. Pandemiya daxili turizmin inkişafına təkan verib, eyni zamanda bir çox problemləri üzə çıxarıb. Qarabağda işğaldan azad olunmuş torpaqlarının ən mühüm turizm zonaları nəzərdən keçirilmişdir. Məlum olub ki, rayonun əksər turizm zonaları bir çox infrastruktur problemi ilə üzləşib - yerləşdirmə, işıqlandırma, sosial infrastruktur, keyfiyyətsiz yollar və s. Eyni zamanda, bu problemlərin həlli rayon sənayesinin davamlı inkişafı üçün zəruri şərtdir. Turizm sektorunun gələcək inkişafı strategiyasını hazırlamaq üçün regionun turizm sektorunun problemlərin həlli yolları təklif edilmişdir. Hazırlanmış təkliflər bütövlükdə sənayenin vəziyyətini yaxşılaşdıracaq, həmçinin onun regional iqtisadiyyata töhfəsini artıracaqdır.

Son illər dünyada baş verən iqtisadi və tibbi böhran turizm sektoruna ciddi təhlükələr yaratmışdır. İqtisadiyyatı turizmdən asılı olan ölkələr üçün epidemiya çox

ciddi iqtisadi və sosial təsirlərə səbəb olur. Turizmdən dolayı asılı olan bir çox sektorun olduğunu nəzərə alsaq, epidemiyanın çarpan təsiri turizmdən asılı olan destinasiyalarda digərlərinə nisbətən çox daha ciddi hiss oluna bilər. İnsanların sosial məsafəni qorumaq qavrayışı davam edərsə, işğaldan azad edilmiş bölgələrdə yaradılan turizm müəssisələrində mövcud məhsul quruluşu ilə tələbatı ödəmək asan olmayacaq. Buna görə də, onlar sosial məsafəni qoruya bilən məhsulun inkişaf prosesinə ən qısa zamanda uyğunlaşmalıdırlar. Bu hadisələrin fonunda, Azərbaycanın işğaldan azad olunmuş ərazilərində turizm infrastruktrunun qurulması zamanı ortaya çıxan çətinliklər mövcuddur.

Bundan əlavə, işğaldan azad edilmiş torpaqlardakı mənzərə böyük çətinliklərdən xəbər verir. Çünki hər şey dağıdılır - infrastruktur dağılır, binalar sökülür, inzibati binalar sökülür. Hazırda həmin yerlərdə yaşayış üçün heç bir şərait yoxdur. Hazırda infrastrukturun bu qədər əlverişsiz olması bu ərazilərdə turizmin inkişafını ləngidir və bərpa işləri üçün daha çox sərmayə tələb olunur. Bu rayonlar zamanla bərpa ediləcək və vətəndaşların bu ərazilərdə normal yaşaması üçün bütün addımları atılacaq. Artıq ilk layihələrin icrasına başlanılaraq Prezidentin ehtiyat fondundan müvafiq vəsait ayrılıb. Füzuli-Şuşa avtomobil yolunun və Bərdə-Ağdam dəmir yolunun tikintisinə başlanılıb. Bu, onu deməyə əsas verir ki, biz bu işləri mümkün qədər səmərəli və eyni zamanda, vaxt itirmədən təşkil etmək üçün qısa zamanda planlaşdırırıq. Artıq müvafiq dövlət strukturları yaradılıb və bütün bu işlər əlaqələndirilmiş şəkildə həyata keçiriləcək.

Azərbaycanın təbii, iqlim, rekreasiya ehtiyatlarının böyük potensialına və müxtəlifliyinə baxmayaraq, turizm sənayesinin ölkə iqtisadiyyatına töhfəsi hələ də kifayət qədər deyil. Azərbaycanda ÜDM-də turizmin orta payı 2020-ci ildə 1,2% təşkil edirdi (Nəsirzadə X., 2021). Bu, ilk növbədə, Azərbaycanın bir çox bölgələrinin turizm potensialından əhəmiyyətli dərəcədə istifadə edilməməsi, həmçinin bu sahədə mövcud turizm biznesinin idarə edilməsi sisteminin çatışmazlıqları, ən əsas da koronavirus (COVID-19) ilə əlaqədardır. Qarabağ regionunun turizm potensialı,

və bu ərazilərdə infrastrukturun inkişafı növbəti illərdə ölkənin ÜDM-a önəmli töhfə verəcəkdir.

Turizmin inkişafına ən böyük maneələrdən biri Dağlıq Qarabağ probleminin həll olunmamış qalması idi (Abadov M.K., 2014: s. 24). Beynəlxalq mediada Azərbaycan müharibəsi, hərbi əməliyyatlar, ölüm xəbərləri də ölkənin turizm potensialına təsir edirdi. Dağlıq Qarabağ kimi ümummilli müharibə ilə müqayisədə turizm itkiləri ciddi problem sayıla bilməz, lakin Türkiyədə baş verən terror və dövlət çevrilişinə cəhd kimi hadisələrdən, Rusiya ilə siyasi böhrandan sonra turizm potensialının 30 faizə qədər azalması faktı ötən illər ərzində vəziyyətin ağırlığını daha da artırır. Sadəcə Azərbaycanın adını eşitmək ölkəyə səfərləri təxirə salmaq üçün kifayət qədər səbəb idi (Liftiyeva N., 2019).

Azərbaycanın işğaldan azad edilmiş ərazilərində turizmlə bağlı problemləri anlamaq üçün Azərbaycanın digər regionlarında turizminin əsas problemlərindən bəzilərinə nəzər salmaq lazımdır. Bunlar aşağıdakılardır:

**Şəkil 4: Azərbaycanın işğaldan azad edilmiş ərazilərində turizmlə bağlı problemlər**




**Mənbə:** Məmmədov E.Q., 2013 kitabının məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Otel qiymətlərinin yüksək olması, istirahət mərkəzlərində turizm xidmətlərinin dünya standartlarına cavab verməməsi, suvenir çeşidinin olmaması, bələdçilərin olmaması və s. kimi bir çox problemlər həllini gözləyir. Turizm sektorunun problemlərinə etinasızlıq, turizmdə kifayət qədər kapitalın olmaması və bu sahədə ümumi siyasətə kifayət qədər diqqət yetirilməməsi ilə izah etmək olar.

Bölgələrdə fəaliyyət göstərən mehmanxana və istirahət mərkəzlərinin ilin müəyyən fəsillərində fəaliyyət göstərməsi, hər mövsüm yeni işçilərin işə götürülməsi xidmət keyfiyyətinə mənfi təsir göstərir. Digər tərəfdən, peşə hazırlığı səviyyəsində lazımi sayda kadr hazırlığı yoxdur. Qəbələdə "Turizm və Otelçilik" Peşə Mərkəzi yaradılıb və İsmayıllıda pilot peşə məktəbinin yaradılmasına səylər göstərilib, lakin bu, yetərli deyil. Əsas problem bu peşəni öyrədə bilən müəllimlərin olmamasıdır, ona görə də ilk növbədə pedaqoqlar hazırlanmalıdır.

Turizm sektorunun sürətlə inkişafı üçün keyfiyyətli obyektlər və keyfiyyətli xidmətlər tələb olunur. Azərbaycanda bu sferada ixtisaslı işçi çatışmazlığı müşahidə olunur. İşğaldan azad edilmiş ərazilərdə turizm sahəsi üzrə çalışacaq insanların ixtisaslı xidmətlərin və ixtisaslı obyektlərin yaradılmasında hazırlanması vacibdir. Ali təhsil müəssisələrdə turizm təhsili alan tələbələrə biliklə yanaşı, bacarıqlarla da təchiz olunmalıdırlar. Turizm sektorunun dinamik xarakterinə görə təhsil oxşar xüsusiyyətlər göstərməlidir. Müəssisələr rəqabət şəraitində sağ qalmaq üçün ixtisaslı işçi qüvvəsinə ehtiyac duyurlar. Turizm sektorunun ixtisaslı işçi qüvvəsinə ehtiyacı ancaq turizm təhsili almış insanlar tərəfindən ödənilə bilər.

Daxili turizm tarixi-mədəni dəyərlərin tədqiqi və inkişaf etməmiş bölgələrin iqtisadi dirçəlişi baxımından əhəmiyyətlidir. Təəssüf ki, müharibə vəziyyəti, iqtisadi problemlər və səyahət mədəniyyətinin olmaması Azərbaycanda daxili turizmin inkişafına mane olurdu. Bununla belə, Avropanın turizmi inkişaf etmiş bir çox ölkələri daxili turizmlə xarici turizm arasında sağlam balans yaratmağa nail olublar. Avropa ölkələrində daxili turizm xarici turizmə alternativ deyil, bir-birini

tamamlayır. Məsələn, Fransada səyahət bazarının 65 faizi, Almaniyada isə 47 faizi daxili bazara aiddir (Güzel Ö., 2013: s.128).

Bu gün Azərbaycan turizm bazarının üzləşdiyi ən mühüm problemlərdən biri də miqyas iqtisadiyyatlarından yararlanmamaq nəticəsində optimal qiyməti müəyyən edə bilməməkdir. Çünki turizm sektorunda yeni inkişaf edən ölkə kimi Azərbaycanda istehsal olunan turizm məhsulları dünyada o qədər də tanınmır. Buna görə də məhsulun qiymətləri ölkəyə gələn turistlərin maliyyə potensialına və xərcləmə meyllərinə uyğun olaraq müəyyən edilməlidir.

Azərbaycanın digər turizm problemi ölkənin böyük potensialına baxmayaraq, yalnız bir neçə rayonun, xüsusən də Bakının tanınmasıdır. Ölkə turizminin şaxələndirilməsi və bütün ölkəyə yayılması son dərəcə vacibdir. Regionların spesifik xüsusiyyətlərinin müəyyənləşdirilməsi və qorunması, turizmin təşviqində regional fərqlərdən səmərəli istifadə etməklə Azərbaycanın sosial-iqtisadi inkişafı sürətləndirilə bilər.

Azərbaycanın işğaldan azad olunmuş bölgələrində turizmin inkişafında görülən problemlərin həlli yolları beynəlxalq təcrübəyə əsaslanaraq mümkün ola bilər. Strategiya idarəçiliyinin ən vacib ölçmə üsullarından biri olan SWOT təhlili təşkilatın daxili və xarici çərçivəsini qiymətləndirməyə imkan verən təhlil texnikasıdır. SWOT analizi ilə daxili və xarici amilləri nəzərə alaraq güclü və böyük imkanların ən qabaqcıl səviyyədən bəhrələndiyi nöqtələrə diqqət yetirərək zəif və təhdidləri minimuma endirəcək plan və strategiyaların hazırlanmasıdır. SWOT təhlili çox vaxt plan hazırlamaq və ya problemi müəyyən etmək və ya həll yolu tapmaq üçün istifadə olunur. Başqa sözlə, SWOT təhlili həm ölkə idarəçiliyi və iqtisadiyyatı, həm də yerli və xarici investorlar haqqında məlumat verir (Öztürk S., 2015: s. 8). SWOT Təhlili müxtəlif inkişaf siyasətləri və strategiyaları müəyyən edən ölkələr üçün potensial resurslarından optimal şəkildə istifadə etmək və yeni strategiyalar hazırlamaq üçün strateji əhəmiyyət kəsb edir (Hüseyn A., 2021: s.58).

Azərbaycanın işğaldan azad olunmuş bölgələrində iqtisadi inkişafın reallaşdırılması və ölkənin resurslarından optimal istifadə edilməsi məqsədilə turizm sektorunun sistemli təhlilinin aparılması üçün SWOT təhlili mühüm imkandır. Turizm sektorunda multiplikator təsiri ilə sektorlararası əlavə dəyər yüksəkdir. Bu fakt onu göstərir ki, Azərbaycanda turizm məhsuldar fəaliyyətdir. Bu gün Azərbaycan iqtisadi inkişafı zəngin karbohidrogen ehtiyatları (neft və qaz) hesabına təmin edir. Lakin bu vəziyyət iqtisadiyyatın birtərəfli inkişafına şərait yaradır ki, bu da digər sahələrin inkişafına mane olur. Problemdən çıxış yolu bərpa olunmayan resurs olan neftdən başqa sahələrin inkişafına dəstək olmalıdır. Bu məqsədlə Azərbaycan hökuməti postneft dövrü nəzərə alınmaqla digər sahələrin inkişafı üzrə dövlət proqramları qəbul etmişdir (Məmmədov E.Q., 2013: s. 76-77).

Dünya təcrübəsində yüksək gəlirlilik potensialına malik turizm məhsul və xidmətləri daimi diqqət və istehlakçıların seçimlərinə uyğunlaşma tələb edir. Azərbaycanın işğaldan azad edilmib bölgələrində turizm məhsullarının inkişafı üzrə özəl təşəbbüslərin təşviqi, yerli və regional səviyyədə müvafiq koordinasiyanın yaradılması, istehlakçı tələbatının diqqət mərkəzində saxlanılması, məhsulların inkişafına regional tematik diqqətin gücləndirilməsi, maraqlı və cəlbedici məhsulların əlaqələndirilməsi bölgədə turizm infrastrukturun yaradılması zamanı yaranan problemlərin həlli yolu ola bilər.

Qarabağ bölgəsinin turizm bölgəsi və ya turizm mərkəzi elan edilməsi üçün bölgədə turizmin inkişafı planının yaradılması, plan çərçivəsində hədəf auditoriyasının müəyyən edilməsi, turizm və investisiya üçün cəlbedici sahələrin müəyyən edilməsi bu problemlərin həll yollarındandır (Muzəffərli F., 2017: s. 50).

Turizm sektorunun problemlərinin həllinə kompleks yanaşmaq lazımdır. İşğaldan azad edilmiş ərazilərin turizm cəlbediciliyini artırmaq üçün təkliflər hazırlamaq lazımdır. Beləliklə, aşağıdakı cədvəl tərtib edilmişdir ki, bu da işğaldan azad edilmiş bölgələrdə turizm sənayesinin infrastrukturunun SWOT təhlilindən analiz etməyimizə imkan verir: (Cədvəl 5).

**Cədvəl 5: İşğaldan azad edilmiş ərazilərdə turizm sənayesinin SWOT təhlili**

| **Güclü tərəflər** | **Zəif tərəflər** |
|---|---|
| • öz tikinti sənayesi bazasının olması;<br>• yeni turizm obyektlərinin yaradılması üçün təbii şəraitin mövcudluğu;<br>• təbii, arxeoloji və tarixi obyektlərin mövcudluğu;<br>• mədəni irsin qorunması;<br>• mədəni dəyərlərin yenilənməsi;<br>• mövcud tarixi abidələrinin və strukturlarının bərpası və ya təkmilləşdirilməsi üçün ölkədə hərəkətverici qüvvə olması. | • turizm obyektlərini birləşdirən keyfiyyətli avtomobil yolunun olmaması;<br>• yerli hava limanının aşağı tutumluluğu;<br>• Qarabağ ərazilərin inkişaf etməmiş infrastrukturu;<br>• zəif inkişaf etmiş əyləncə sənayesi;<br>• dəmir yolları şəbəkəsinin olmaması;<br>• su, hava və səs-küy çirkliliyi;<br>• vizual çirklənmə;<br>• bioloji müxtəlifliyin azalması;<br>• arxeoloji və tarixi obyektlərin zədələnməsi;<br>• torpaqdan istifadə problemləri;<br>• regionda məşğulluğun az olması;<br>• mədəni təsirlər və sosial problemlər. |
| **İmkanlar** | **Təhdidlər** |
| • turizmə maliyyə dövlət dəstəyi;<br>• investisiya üstünlüklərinin artması;<br>• infrastruktur imkanlarının inkişafı;<br>• kiçik və orta bizneslər üçün dövlət dəstəyi;<br>• turizm sektoru ilə bağlı sahibkarlıq qabiliyyətinin artırılması;<br>• ərazidə turizmlə bağlı stimullaşdırıcı tədbirlər. | • mədəni irs obyektlərinin düşmən tərəfindən dağıdılması;<br>• turizm xidmətləri istehsalında ixtisaslı kadrların miqrasiyası;<br>• Pandemiya şəraitinin dünyada və ölkəmizdə davam etməsi. |

**Mənbə:** Müəllif tərəfindən tərtib olunub.

Türkiyə həm iqtisadi, həm mədəni, həm də siyasi baxımdan Azərbaycana ən yaxın ölkədir və turizm təcrübəsi var. Bu mənada Azərbaycanın Türkiyənin turizmin inkişafı prosesində öz təcrübəsini öyrənməsi və tətbiqi daha mənalı və asan olacaq. Türkiyədə olduğu kimi Azərbaycanda da fəaliyyət göstərən turizm şirkətlərinin şəbəkələşməsi və onların beynəlxalq təşkilatlarda fəaliyyətini təmin etməsi bu sektorun inkişafı üçün hərəkətverici qüvvələrdən biri ola bilər. Bu gün marketinq strategiyalarının hazırlanması sektorun inkişafı üçün zəruri şərtdir. Ölkənin turizm marketinqində bütün yerli və xarici maraqlı tərəflərin koordinasiyalı iştirakı ilə ölkənin turizm SWOT təhlili ilə marketinq strategiyasının hazırlanması optimal fayda təmin edə bilər.

Azərbaycanda turizm sahəsində inkişaf etmiş ölkə modellərinin tətbiqi sektorun inkişafına böyük müsbət təsir göstərə bilər.

Son illərdə Azərbaycan Respublikasının beynəlxalq aləmdə siyasi və iqtisadi nüfuzunun artması turizm sektoruna da müsbət təsir göstərmişdir (Əvəzli K.N., 2016: s.50). Ona görə də siyasi sabitlik ölkəyə gələn xarici turistlərin sayının artmasına səbəb olmuş və ticarət həcminin artmasına səbəb olmuşdur. Eyni zamanda, Azərbaycanda aparılan iqtisadi islahatlar turizmin inkişafı üçün mühüm rol oynayır. Bu sahədə prioritet təbii coğrafi şəraitin və regionların potensialının iqtisadi gəlirə çevrilməsidir. Ölkədə mərkəzi maliyyə resursları yerli büdcələrdə cəmləşdiyindən turizmin maliyyələşdirilməsi proqramları üçün kreditlər və təkbətək investisiya imkanlarından dövlət və qeyri-dövlət maliyyə resurslarından istifadənin səmərəli istiqamətləri kimi getdikcə daha çox istifadə olunur. Rəqabət mühiti yeni texnologiyalar və restrukturizasiya sahələrini müəyyən etməklə müxtəlif resurslara investisiya qoymaq imkanını artırır. Restrukturizasiyanın vaxtı və iqtisadi cəhətdən səmərəli təşkili turizmin idarə edilməsində regional və mərkəzi maraqların konsolidasiyası və ədalətli bölüşdürülməsi yolu ilə mümkün olacaq. Turist tələbini yüksək istehlak mədəniyyətinin tərkib hissəsinə çevirmək üçün şərait və mexanizmlərdən istifadə etməklə yeniləşmə aparılmalıdır (Nəbiyev E.S., 2016: s.42).

Azərbaycanın işğaldan azad edilmiş ərazilərindəki perspektiv komponentlər, xüsusilə 2025-ci ildən sonrakı dövr üçün Azərbaycanın dünya turizm sektorunda ən çox seçilən 20 turizm bölgəsindən biri olmağını hədəfləyir. Azərbaycanda bu məqsədlə brendinq tədbirlərinin həyata keçirilməsi, infrastrukturun təkmilləşdirilməsi, eləcə də cəlbedici turizm istiqamətlərinin xidmət keyfiyyətinin artırılması ölkəni beynəlxalq turizm bazarında cəlbedici turizm elementinə çevirəcək. Bu yolla dünyanın hər yerindən potensial turistlər Azərbaycanın Qarabağ regionuna səfər edəcəklər.

Araşdırmanın nəticəsində turizmin Azərbaycan iqtisadiyyatı üçün hərəkətverici qüvvə ola biləcək bir sektor kimi böyük potensiala malik olduğu

müəyyən edilmişdir. Lakin bütün bu müsbət potensiala baxmayaraq, turizmin tez-tez xarici amillərin təsirinə məruz qalması da diqqətdən kənarda qalmamalıdır. Yaşanan siyasi problemlər, Covid-19 pandemiyası kimi sağlamlıq problemləri Azərbaycan qədər bütün ölkələrin mühüm problemlərindəndir. Bu mənfi təsirləri minimuma endirməklə, dərhal turizm yönümlü siyasətlərin optimallaşdırılmasına diqqət yetirmək üçün bir araşdırma təklifi kimi təqdim olunur.

# III FƏSİL. İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRDƏ TURİZMİN DAVAMLI İNKİŞAFI ÜÇÜN ADAPTİV SİSTEMLƏRİN YARADILMASI VƏ TƏTBİQİ YOLLARI

## 3.1. Bölgədə turizmin davamlı inkişafı üçün dövlət strategiyasının formalaşdırılması

Dövlətin əsas funksiyalarından biri iqtisadiyyatın inkişafı və sosial rifahın yaxşılaşmasıdır. Bu funksiya iqtisadi münasibətlərin davamlı inkişafı üçün zəruri şəraitin, o cümlədən bu münasibətlərin əsas iştirakçılarının fəaliyyətinin ümumi qaydalarının formalaşdırılmasından ibarətdir. İqtisadiyyatın dövlət tənzimlənməsi dövlətin onun orqanları tərəfindən təmsil olunan, xüsusi vasitələrdən, formalardan və metodlardan istifadə etməklə iqtisadi siyasətinin həyata keçirilməsinə yönəldilmiş fəaliyyətidir.

Müxtəlif səviyyəli dövlət təşkilatları öz yurisdiksiyalarında olan turizm obyektlərinin gündəlik tənzimlənməsində, o cümlədən obyektlərin tikintisi, lisenziyalaşdırılması, ictimai iaşə sisteminin yoxlanılması, standartlara və tələblərə uyğunluğuna nəzarətlə məşğul olurlar.

Turizm Agentliklərinin işinin məqsədi gəliş və gediş kartları əsasında statistik məlumatların toplanmasıdır, turizm tədqiqatlarına həmçinin turistlərin xərclərinin həcmi, səfərin məqsədi, turizmin regiona sosial təsirinin müəyyən edilməsi, tətillə bağlı rəy və məlumatların toplanması və işlənməsi daxildir.

Dövlət tənzimlənməsinin birbaşa və dolayı üsulları mövcuddur ki, onların hər birinin öz məqsədi var. İqtisadi təşkilatın mövcudluğunun müxtəlif mərhələlərində: yaranma, iqtisadi münasibətlərin davamlı inkişafı, o cümlədən, fəaliyyətin və son nəticənin əldə edilməsi mərhələlərində zəruri şəraitin formalaşdırılmasının ümumi qaydaları var. Turizm fəaliyyətinin sürətli və uğurlu inkişafı, turizm xidmətlərinin göstərilməsi üçün əsas dövlət tənzimlənməsində qaydalar yaratmaq lazımdır.

Turizm sektorunun davamlı inkişafında dövlətin rolu aşağıdakı kimidir:

**Qrafik 3: Turizm sektorunun davamlı inkişafında dövlətin rolu**




**Mənbə:** Əlirzayev Ə.Q., 2011 kitabının məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Bir çox ölkələrdə turizm o qədər mühüm sahədir ki, onun maraqları nazirlər səviyyəsində təmsil olunur, lakin iqtisadi əhəmiyyəti o qədər də böyük olmasa da, ölkədə rəsmi və ya yarı rəsmi statusa malik Turizm Agentliyi fəaliyyət göstərir. Məsələn, ABŞ-da bu, Ticarət Departamentinin nəzdindəki Turizm Agentliyidir.

Bir çox ölkələr birbaşa maliyyə sərmayələri hesabına turizm sektorunun inkişafına töhfə verirlər. Bəzi hallarda tikinti şirkətləri və turoperatorlar 10 ilə qədər vergi ödəmədən saytlarda işləyə bilərlər. Digər hallarda vergilər azaldılır və ya ödənişlər biznes gəlirli olana qədər təxirə salına bilər.

Dövlətin turizmin inkişafında birbaşa tənzimlənməsi fiskal yol ilə baş tutur. Digər bir üsul isə dolayı tənzimlənmədir. Dövlət sərmayəsi dolayı olsa belə, inkişaf prosesi başlamazdan əvvəl zəruri olan infrastrukturun yaradılması və ya təkmilləşdirilməsi yolu ilə dövlət dolayısı ilə töhfə verir: yollar, elektrik enerjisi, kanalizasiya, telefon rabitəsi, hava limanları, su ehtiyatları. Yeni iş yerlərinin üçün kadrların hazırlanması da dövlətin turizmin inkişafına töhfəsidir.

Bazar potensialının müəyyən edilməsi, yəni potensial turistlərin sayının müəyyən edilməsi sənayenin inkişafının ilkin mərhələsidir. Bundan sonra sosial və ətraf mühitə təsirin öyrənilməsi mərhələləri, planlaşdırma və inkişaf prosesinin özü, o cümlədən infrastrukturun təkmilləşdirilməsi, maliyyə məsələləri və digər "əlavələrin" yaradılması daxildir.

Son illər dövlət idarələri rəqabət qabiliyyətinə təsir edən amillərə diqqəti artıraraq turizm istiqamətlərinin idarə olunmasında daha fəal iştirak edir və onların inkişafına öz töhfələrini verirlər. 2013-cü ildə Meksikanın Los-Kabos şəhərində keçirilən G-20 Sammitində iştirakçı dövlətlər turizmi iş yerlərinin yaradılması, iqtisadi artım və inkişaf üçün əsas rol kimi tanıdılar.

Ənənəvi olaraq, ekspertlər hesab edirlər ki, hökumətlərin turizmin inkişafına cəlb edilməsinin əsas səbəbləri 2 əsas amildir:

- yalnız hökumət rəqabətin inkişafı üçün əlverişli mühit yaratmağa qadirdir, çünki dövlət siyasəti bir sıra məqsədlərə nail olmağa yönəlmişdir: iqtisadi və ekoloji məsələlərdən tutmuş sosial və təhsilə qədər, bu da ölkənin cəlbediciliyini artırır. Bundan əlavə, yalnız dövlət hüquqi səlahiyyətlərə malikdir və turizm sənayesinin inkişafı üçün təhlükəsizliyi, siyasi sabitliyi, qanunvericilik dəstəyini və maliyyə bazasını təmin etməyə qadirdir;

- turizmin inkişafının uğuru digər sənaye sahələrinin də uğurlu fəaliyyət göstərməsindən asılıdır. Beləliklə, dövlətin müdaxiləsi rəqabət şəraiti yaratmaqla obyektin uğurlu inkişafı üçün ilkin şərtdir.

Turizmin inkişafında dövlətin rolunu müasir dünya tendensiyaları timsalında izləmək olar. Hazırda turizm sənayesi onun inkişafına təsir edən bir sıra dəyişikliklərə məruz qalır. Bu, təkcə bu iqtisadi sahənin prioritetliyi və gəlirliliyi ilə deyil, həm də COVID-19-un yayılmasının yaratdığı dəyişikliklər və pandemiyanın yaratdığı qlobal məhdudiyyətlərlə bağlıdır.

Məsələn, statistik məlumatına görə, böhranlı 2021-ci ildə Azərbaycan turizm gəliri 7 dəfə azalaraq 415 milyon manata düşüb. 2021-ci ildə mehmanxanaların

gəlirləri isə 209,2 milyon manat təşkil etmişdir, bu da 2020-ci illin göstəricisi ilə müqayisədə 79,1% çoxdur. Bu hal daxili turizmin inkişafı ilə əlaqələndirilir.

Mövcud vəziyyəti nəzərə alaraq, müxtəlif regionlarda turizm biznesində, ilk növbədə kiçik və orta biznesə dövlət dəstəyinə ehtiyac var. Azərbaycan həmçinin bu ərazilərdə ailə biznesinin inkişafını da təmin etməlidir (Musayev Y., 2021: s.452). Azərbaycan Respublikası daxili turizmdə ixtisaslaşan turoperatorlara subsidiya vermək və onlara güzəştlər etmək üçün tədbirlər hazırlamalıdır.

Dövlət səviyyəsində müxtəlif hökumətlər turizm sənayesini dəstəkləmək üçün proqramlar və gələcək inkişaf strategiyaları hazırlayır. Hökumət turizm sahəsində dövlət dəstəyi tədbirlərini fəal şəkildə tətbiq etməlidir.

Turizm sektoru ilə məşğul olan kiçik və orta sahibkarlıq subyektlərinin maliyyə dəstəyinə xüsusi diqqət yetirilməlidir. Turizm sənayesindən olan KOS-lar üçün illik aşağı faiz dərəcəsi ilə kredit dəstəyi mövcud olmalıdır.

Turizmin davamlı inkişafı üçün dövlət strategiyasının bir hissəsi olaraq müəyyən layihələr həyata keçirilməlidir:

1) Mehmanxanaların tikintisi üçün faiz dərəcəsinin subsidiyalaşdırılması, ictimai və biznes təşəbbüslərinə qrant dəstəyi, regionlara subsidiyaların verilməsi üçün turizm infrastrukturunun inkişafı və yüksək keyfiyyətli turizm məhsulları yaradılmalıdır.

2) Turizm məhsullarının əlçatanlığının və məlumatlılığının artırılması üçün layihə hazırlanmalı, onun çərçivəsində vətəndaşlara gediş-gəlişin subsidiyalaşdırılması (cashback), nizamnamələrin, turoperatorların subsidiyalaşdırılması, birgə maliyyələşdirmə tədbirləri və təşviqat kimi mövcud dövlət dəstəyi tədbirləri hazırlanmalıdır;

3) Turizmin idarə edilməsinin təkmilləşdirilməsi üçün layihə hazırlanmalıdır. Burada dövlət turizm sənayesinin inkişafı üçün innovativ vasitələrin işlənib hazırlanmasını və həyata keçirilməsini nəzərdə tutur.

Bundan əlavə, işğaldan azad olunmuş bölgələrdə hazırlanacaq strategiyaya turist cəlbedici yerlərin yaradılması və genişləndirilməsi ilə turizm makro ərazilərinin inkişafı daxil olmalıdır (Salmanlı R., 2022: s.6).

Beləliklə, dövlətin turizm sənayesinin inkişafına və fəaliyyətinə müdaxiləsinin rolunu tam düzgün qiymətləndirmək olmaz, çünki müxtəlif mərhələlərdə dövlətin rolu turizm fəaliyyətinin inkişafına kömək etmək və onun fəaliyyəti üçün əlverişli şərait yaratmaqdır. Turizmin prioritet sahələrini müəyyənləşdirmək, turistlərə, turoperatorlara, turizm agentliklərinə və agentlərə dəstək vermək və onların müdafiəsini həyata keçirmək lazımdır.

Bölgələrdə turizmin davamlı inkişafında dövlət daxili və xarici investisiyaların cəlb edilməsinə marağı artırmalıdır. Belə ki, turizm sektoru üzrə qoyulan investisiyaların sayında  çox böyük azalma var. 2013-2020-ci illər üzrə turizm sektorunda azalma tendensiyasının 2015-ci ildən başlandığını, koronovirus pandemiyasından sonra isə 2014-cü ilə nisbətdə 2020-ci ildə 28 dəfə azaldığını demək olar. Bu səbəbdən Qarabağ ərazisinə turizmlə bağlı investisiyaların artırılmasının olduqca çətin olacağı görsənir.

**Qrafik 4: 2013-2020-ci illərdə turizm sektoru üzrə qoyulan investisiyaların ümumi həcmi, (milyon manatla)**




**Mənbə:** Azərbaycanda turizm Statistik məcmuə 2021, http://www.stat.gov.az source/tourism/

Azərbaycanda turizm sahəsində kifayət qədər insan resursu var. Pandemiyadan sonra 2020-ci ildə bu sahədə işləyən insanların sayında 16,9%

azalma olmasına baxmayaraq, istər pandemiyanın təsirinin azalması, istərsə də Qarabağda turizmin inkişaf etdirilməsi bu sayın daha da artmasına səbəb olacaq (Mükərrəmoğlu M.,2021: s.1). İş üçün xaricə gedən həmvətənlərimiz, Azərbaycanda olan işsiz əhalinin sayı, Bakı və ətraf bölgələrdə olan potensial işçi qüvvəsi əmək resursunun kifayət qədər olduğunu göstərir. Dövlət strategialarından biri də bu ərazilərdə işləyən işçilərin təhlükəsizliyini təmin etməsi ilə bağlı proqram, müəyyən azadolmalar təklif etməklə bu ərazilərə olan marağı artırmaqdır.

**Qrafik 5: 2013-2020-ci illərdə turizm sektorunda çalışan işçilərin ümumi sayı, (milyon manatla)**




**Mənbə:** Azərbaycanda turizm Statistik məcmuə 2021, http://www.stat.gov.az source/tourism/

Turizm sektorunda insanların sayı getdikcə artmağa davam edir. Ümumdünya Turizm Təşkilatının (UNWTO) məlumatına görə, 2019-cu ildə 1,5 milyarddan çox insan turist kimi səfər edib. Qlobal turizmin qarşısındakı ən böyük maneələrdən biri isə Koronavirus pandemiyasıdır. Pandemiyanın hələ də dünya gündəmində qalması turizm sektoru qarşısında böyük maneədir. 2020-ci ildən etibarən koronavirus (COVİD-19) pandemiyası ilə əlaqədar turizm aktivlərində 70-80% azalma olsa da, peyvənd prosesi artdıqca turizm sektorunda canlanma olacaq (Məhərrəmova.T, 2020: s.16). Turizm sektorunun davamlı inkişafı üçün yeni şərait və mühitlər yaradılır.

Pandemiyadan sonra turizm sektorunun iflasa uğramasından sonra bir çox ölkələr bu sahəyə sərmayə qoyaraq canlanmaq istəyir. Ehtimal etmək olar ki, pandemiyadan sonrakı dövrdə sosial-iqtisadi inkişaf istiqamətində atılan addımlarda turizm sektorunun payı böyük olacaq (Sarıyeva İ., 2021: s.10). Tədqiqatçıların fikrincə, Qarabağ yaxın gələcəkdə Azərbaycanın turizm mərkəzinə çevriləcək. Qarabağ bölgəsində turizm sahəsinin böyük potensialı ilə yanaşı, onun inkişafında əsas problemlər də var. Belə ki, Qarabağ müharibəsi zamanı Ermənistan Qarabağın əksər yerlərində minalar yerləşdirib. Ekspertlərin fikrincə, Qarabağın minalardan tam təmizlənməsi üçün 10 ildən çox vaxt lazımdır (Sarıyeva İ., 2021: s.10). Belə olan halda Qarabağın turizm potensialı azalır. Ona görə də Qarabağın mina xəritələrinin tez bir zamanda əldə edilməsi bu sahədə dövlət tənzimləməsinin prioritetlərindəndir.

Qarşıdakı illərdə Qarabağ yenidən qurulması və müasir şəhərlərin salınması ilə dünyanın turizm mərkəzlərindən birinə çevriləcəkdir. Ermənistanın beynəlxalq hüquq normalarına uyğun mina xəritələrini operativ şəkildə çatdırması yaxın illərdə həm Azərbaycan, həm də Cənubi Qafqaz regionu üçün böyük iqtisadi inkişafa səbəb olacaq. Ona görə də BMT və digər beynəlxalq müşavirlər Cənubi Qafqazda sülh və inkişaf üçün Ermənistan hökumətinə təzyiq göstərməlidirlər. Qarabağ bölgəsində Zəngəzur dəhlizinin açılmasından sonra Qarabağdan burada tranzit marşrut kimi istifadə edilməsi və müharibə dövründə Qarabağın dünya mediasında təbliği müharibədən sonra bura turist axınını artıracaq. Bununla belə, davamlı turist axını üçün Qarabağda genişmiqyaslı dayanıqlı turizmin inkişafı üçün investisiyalar qoyulmalıdır (Salayev N., 2021: s.4). Düşünmək olar ki, turizmin bütün növlərindən səmərəli və davamlı istifadə Azərbaycan iqtisadiyyatına böyük fayda verəcək.

Turizm sektorunda planlaşdırma təkcə regional turizm planlamasını deyil, həm də gələcəkdə turizmin iqtisadi, ekoloji və sosial təsirlərini nəzərə alaraq lazımi ehtiyat tədbirlərinin əvvəlcədən alınmasını tələb edir.

Ümumdünya Turizm Təşkilatına (The World Tourism Organization, 2020) görə davamlı inkişaf üçün turizm sahəsində fundamental ekoloji prosesləri qorumaq, təbii

irsin və biomüxtəlifliyin qorunmasına kömək etmək, turizmin inkişafının əsas elementi olan ekoloji resurslardan ən yaxşı şəkildə istifadə etmək, ev sahibi icmaların sosial-mədəni orijinallığına hörmət etmək, onların məskunlaşmış və canlı mədəni dəyərlərini qorumaq irsi və ənənəvi dəyərləri qorumaq və mədəniyyətlərarası münasibətləri qorumaq lazımdır. Təbii ki, bu prosesləri düzgün və çevik dövlət tənzimləməsi olmadan təsəvvür etmək mükün deyil. Bundan başqa, davamlı məşğulluq və gəlir əldə etmək imkanları və bütün maraqlı tərəflərə sosial-iqtisadi faydalar, o cümlədən ev sahibliyi edən icmalara sosial xidmətlər təqdim etmək və yoxsulluğun azaldılmasına töhfə vermək, davamlı, uzunmüddətli iqtisadi əməliyyatlar aparmaq lazımdır.

